www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 dekabr 2025-ci il Cümə № 231 (8841) Qiymәti 60 qәpik

Xəbər

## Həmin tələbələr ali məktəbdən qovulacaqlar

yazısı səh.10-da

Gündəm

### İran telekanalı "Yeni Müsavat"ı hədəf aldı


"SƏHƏR TV" RAMİZ MEHDİYEVİN MÜDAFİƏSİNDƏ

Bu hücumlarla eyni zamanda İran özünün dünyanın müxtəlif ölkələrindəki agentura şəbəkəsinə kod mesajlar ötürür

yazısı səh.6-da

### Nazirin yüksək vəzifə verdiyi üç kadr - dosyeləri

yazısı səh.3-də

### Bakıdan Avropa İttifaqına daha bir etiraz

yazısı səh.5-də

### Rəsul Quliyev torpağı 5 milyon manata, yoxsa dollara satıb?

yazısı səh.3-də

### Ali Məhkəmədən ilginc faiz qərarı

yazısı səh.11-də

### Putin 5 +1 formatına qoşulmaq istəyir

yazısı səh.7-də

### NATO-nun Azərbaycan planının şifrələri

yazısı səh.5-də

### İsrail nəşrindən sensasion Azərbaycan iddiası

yazısı səh.7-də

### Tehranla Moskvanın dəhliz narahatlığı

yazısı səh.6-da

### Yeni virus 30 ölkəni çənginə alıb - Azərbaycana təhlükəsi

yazısı səh.15-də

### Türk ölkələrinə qarşı dezinformasiya dalğası

yazısı səh.6-da

### Çay istehsalında ciddi azalma

yazısı səh.15-də

# TRAMPA QARŞI "BAKIYA SİYAHI GÖNDƏR" ŞANTAJI

ABŞ lideri mühakimə olunan erməni canilərin azad olunması üçün Azərbaycandan xahiş edərmi?; Bakıda mühakimə olunanların belaruslu məhbuslardan fərqi...



yazısı səh.9-da

# İki kəndimizi qaytarsalar, milyonlar qazanacaqlar

Bakıdan sülhə doğru daha bir tarixi addım - Ermənistana neft məhsulları göndərildi

yazısı səh.4-də



### Vardanyanın məhkəmədə son ümidi də puç oldu

yazısı səh.11-də



### Abbas Abbasovu İnterpol axtara bilər

yazısı səh.3-də



### Kremlin "İrəvan qapısı" bağlanmaq ərəfəsində - Overçukun qəfil səfəri

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

# UEFA-dan "Ayntraxt"a Bakıya gəlmək qadağası



**UEFA-nın Nizam-İntizam Komitəsi "Ayntraxt Frankfurt"un Çempionlar Liqasının səfər oyununu azarkeşsiz keçirməsinə qərar verib.**

Almaniya mediası xəbər verir ki, bu qərar dekabrın 9-da "Barselona" ilə oyun zamanı fanatların yandırıcı vasitələrdən istifadə etməsi, meydana əşyaların atılması və stadiona ziyan vurması ilə əlaqədar tətbiq olunub.

Qərara əsasən, "Ayntraxt"ın yanvarın 21-də Bakıda Tofiq Bəhramov stadionunda "Qarabağ"la keçiriləcək səfər qarşılaşmasında alman azarkeşlər stadiona buraxılmayacaq. Qərar verilərkən klub azarkeşlərinin əvvəlki davranışları da nəzərə alınıb. Bu, Almaniya klubu barədə verilən üçüncü qərardır. Klub Çempionlar Liqasının qrup mərhələsində keçirdiyi daha iki oyunda azarkeş dəstəyindən məhrum olmuşdu. Almaniya klubuna 38000 avro cərimə kəsən UEFA fanatların səfər zamanı törətdiyi ziyanın ödənilməsini də tələb edib.



## Türkiyə generalı Bakıya niyə gəlib?

**17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.**

MN-dən verilən xəbərə görə, dekabrın 18-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

General-polkovnik K.Vəliyev Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyini qeyd edib. Hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının zəruriliyini bildirib.

Ordu generalı L.Ergün Bakıda iki gündür davam edən 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında icra olunan fəaliyyətlərin yeni imkanların formalaşmasında müsbət təsirindən danışıb, hərbi əlaqələrimizin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının cari vəziyyəti təhlil edilib, maraq doğuran məsələlər və perspektiv planlara dair geniş müzakirələr aparılıb.



## Gülçöhrə Məmmədova "Şərəf" ordeni ilə təltif edildi

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova "Şərəf" ordeni ilə təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.

Qeyd edək ki, sərəncam Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illik yubileyi ilə əlaqədar imzalanıb. Gülçöhrə Məmmədova 2006-cı ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorudur.



## Bayrama görə bu ailələrə birdəfəlik yardım ediləcək?

**Bayram günləri yaxınlaşdıqca sosial vəziyyəti həssas olan ailələrin əlavə dəstək alıb-almayacağı mövzusu yenidən gündəmə gəlib. Xüsusilə bayram ərəfəsində aztəminatlı şəxslərə birdəfəlik yardım ayrılması ilə bağlı cəmiyyətdə gözləntilər olsa da, mövcud qaydaların buna imkan verib-vermədiyi sual doğurur. Bu barədə Konkret.az-a açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, hazırda Azərbaycanda belə bir praktika mövcud deyil.**

Ekspertin sözlərinə görə, sosial müavinət alan şəxslərə dövlət tərəfindən yalnız aylıq ödənişlər verilir və bu mexanizmin bayram günləri üçün ayrıca formada genişləndirilməsi planlaşdırılmır. "Bəzi şirkətlər tərəfindən xeyriyyə aksiyalarının keçirilməsi mümkündür. Adətən Yeni il ərəfəsində uşaq evlərinə, qocalar evlərinə və sosial yardıma ehtiyacı olan digər insanlara könüllü şəkildə dəstək göstərilir. Lakin dövlət tərəfindən əlavə birdəfəlik ödənişlərin ayrılması hələlik nəzərdə tutulmayıb," - deyə Natiq Cəfərli qeyd edib




## Qida Təhlükəsizliyi Agentliyindən "zəhərli saqqız" açıqlaması

**Bakı şəhəri, Nəsimi rayonu 14 saylı tam orta məktəbdə şagirdlərin zəhərlənməsi ehtimalı ilə əlaqədar Qida Təhlükəsizliyi Agentliyi tərəfindən araşdırma aparılıb. Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, araşdırma zamanı şagirdlərin marketdən aldıqları "Dirol" əmtəə nişanlı qarpız-yemiş aromalı saqqızı istehlak etdikdən sonra qusma, ürəkbulanma və qarın ağrısı simptomlarının olduğu bildirilsə də, tibb müəssisəsi tərəfindən zəhərlənmə diaqnozunun təsdiq edilmədiyi məlum olub.**

"Agentliyin əməkdaşları tərəfindən ərazidə yerləşən marketdə və 14 saylı tam orta məktəbin yeməkxanasında plandankənar yoxlama keçirilib. Baxış zamanı marketin satış vitrinində və anbarda yararlılıq müddəti bitmiş, saxlanma qaydasına əməl olunmayan saqqız məhsulları aşkarlanmayıb. "Dirol" əmtəə nişanlı saqqız məhsullarından nümunələr götürülərək laborator müayinələrə cəlb olunub. Sınaq nəticələrinə əsasən həmin saqqız məhsulunda uyğunsuzluq aşkarlanmayıb.

Məktəbin yeməkxanasında aparılan yoxlama zamanı təqdim edilən qida məhsullarının isə saxlanma və yararlılıq müddətinə riayət edildiyi müəyyən olunub", - açıqlamada qeyd olunub.

## Bakıda ilk dəfə "ağıllı svetofor"lar quraşdırıldı



**Bakıda ilk dəfə nəqliyyat axınının fasiləsiz hərəkətinə şərait yaradan "ağıllı svetofor"lar (adaptiv) quraşdırılıb. Bu məqsədlə iki xarici ölkənin mütəxəssisləri birlikdə pilot layihəyə start verib.**

Bu barədə Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən məlumat verilib. Adaptiv svetoforların ənənəvi svetoforlardan fərqi nədir? "Ağıllı svetofor"lar yol üzərində yerləşdirilən sensorlar, kameralar və bəzən radarlar vasitəsilə hərəkət intensivliyini ölçür. Toplanan məlumat mərkəzi idarəetmə proqramına ötürülür və həmin proqram real vaxt rejimində hansı istiqamətdə svetoforun yaşıl işığının müddətinin artıb-azalması ilə bağlı qərar verir. Ənənəvi svetoforlar sabit qrafiklə işləyir, adaptiv sistem isə daim dəyişən vəziyyətə uyğunlaşır.

Yeni sistem nəqliyyatın sıx olduğu pik saatlarda və qəza hallarında necə reaksiya verəcək?

Pik saatlarda nəqliyyat axını sürətlə artır. Ənənəvi svetoforlar bu artımı nəzərə almır, nəticədə uzun növbələr yaranır. Adaptiv sistem isə avtomatik olaraq həmin istiqamətə daha çox yaşıl işıq ayırır. Qəza halında və ya yol bağlandıqda isə sistem dərhal vəziyyəti analiz edir, istiqamətlərin prioritetini dəyişir və yükün balanslaşdırılmasına şərait yaradır.

Adaptiv svetoforlar yol hərəkəti iştirakçıları üçün səmərəlilik baxımından daha faydalı olacaq. Yəni yolda nəqliyyat sıxlığı olmadığı vaxtlarda svetoforların yaşıl işığı daimi yanmaqla, vaxt itkisinin qarşısı alınmış olacaq.

## Qubada sərnişin avtobusu ana və övladını vurub

Qubada sərnişin avtobusu ana və övladını vurub.

APA-nın şimal bürosu xəbər verir ki, hadisə Quba şəhərinin Heydər Əliyev prospektində baş verib.

Quba-Xaçmaz marşrutu ilə hərəkət edən avtobus 1998-ci il təvəllüdlü İsrafilova Əminə Sahib qızını və onun azyaşlı övladını vurub. Xəsarət alan 27 yaşlı qadın və övladı Quba rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Qadını xilas etmək mümkün olmayıb.

Faktla bağlı araşdırma aparılır.



## Hospitalda ölən əsgərlə bağlı araşdırma aparılır

**Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, əsgər Əli Vahab oğlu Cəfərovun xəstəlikdən müalicə olunduğu hospitalda bu ilin dekabr ayının 15-də ölməsi ilə bağlı araşdırma aparılır.**

Bu barədə Hərbi Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, Bakı Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən müvafiq istintaq hərəkətləri aparılıb, ölümün səbəbinin müəyyən edilməsi məqsədilə ekspertiza təyin olunub, eləcə də digər prosessual tədbirlər icra edilib.

Faktla bağlı hazırda araşdırma davam etdirilir.

## Yadigar Muradovun yerinə təyinat

**Şuşa Dövlət Dram Musiqili Komediya Teatrına yeni direktor əvəzi təyin olunub. "Qaynarinfo" xəbər verir ki, direktor səlahiyyətlərini Əməkdar artist, mərhum Yadigar Muradovun müavini Azad Məmmədov icra edəcək.**

Əməkdar artist Azad Məmmədov məlumatı təsdiqləyib.

Xatırladaq ki, Şuşa Dövlət Dram Teatrının direktoru Yadigar Muradov uzun sürən xəstəlikdən sonra noyabrın 18-də dünyasını dəyişib. Mərhum xərçəng xəstəliyindən əziyyət çəkirdi.

## Bağça müdiri rüşvət alıb?

**Zaqatala şəhəri Aydın Əhmədov adına 6 nömrəli körpələr evi-uşaq bağçasının sabiq müdiri Hasilova Lətifə Nizami qızı 1 dekabr 2025-ci il tarixindən vəzifəsindən azad olunub.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Şəki-Zaqatala Regional Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, hazırda qeyd olunan məsələ ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırmalar aparılır.

Qeyd edək ki, Hasilova Lətifə Nizami qızının uşaq bağçasının müdiri işləyərkən çoxlu sayda vətəndaşdan müxtəlif məbləğlərdə pul alaraq onları həmin bağçaya işə götürəcəyinə dair söz verməsi və sonda vədinə əməl etməyərək həmin pulları mənimsədiyi iddia edilir.

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

# Abbas Abbasovu İnterpol axtara bilər

## Baş nazirin sabiq müavininin saxlanılması üçün çətinliklər mövcuddur; ekstradisiya problemi və ermənilərlə qohumluq iddiaları...



**“Vaxtilə Azərbaycanda baş nazirin müavini olan, işdən azad edildikdən sonra "İstiqlal" ordeni verilərək, hörmətlə yola salınan Abbasovun Moskvaya sığınaraq, anti-Aazərbaycan fəaliyyətində önəmli yer alması da onun xəyanətkar xislətindən qaynaqlanır. Onun Azərbaycana qarşı xəyanətlərində erməni qohumlarının olması amilinin də rol oynadığı istisna edilməməlidir".**

Politoloq Asif Nərimanlı Axar.az-da belə yazıb.

“Məlumata görə, Abbas Abbasovun qayınanası 1924-cü ildə Şəmkir rayonunun Borum kəndində doğulmuş Göharik Voskanovna adlı erməni olub, sonradan adı Gövhər olaraq dəyişdirilib və Gəncədə həyat yoldaşı Mobil Quluyevin yanında dəfn edilib. Abbas Abbasov baş nazirin birinci müavini olduqdan sonra erməni qayınanası məcburən İmamzadədə İslam dinini "qəbul edib", vəfat etməmişdən öncə isə erməni qohumlarının adlarını sadalayaraq, Ermənistanda dəfn olunmağını vəsiyyət edib. Abbasov isə sevimli qayınanası vəfat edəndə belə Azərbaycana gələ bilməyib.

Abbas Abbasov həyat yoldaşı Bella Nobilovnanın (Nobil qızı) da adını dəyişdirərək Bilqeyis qoyub. O, Xarici Dillər Universitetində çalışıb, 1995-ci ildən sonra fəaliyyətini praktiki olaraq dayandırsa da, iş cədvəlinə uyğun olaraq maaş alıb. On il ərzində qiyabi olaraq elmlər namizədi olub, dosent adına yiyələnib. Onun akademik fəaliyyəti ilə bağlı şübhəli məqamlar olduğu iddia edilir.

Ermənilərlə qohumluğu Abbasovun biznes fəaliyyətində də rol oynayıb. İddialara görə, onun Ermənistan və Rusiyada biznes əlaqələri var. Görünür, Abbas Abbasovun Azərbaycana qarşı düşmənçiliyində ermənilərlə qohumluğu da rol oynayıb", - deyə yazıda bildirilir.

Ramiz Mehdiyev işi üzrə axtarışa verilən Abbas Abbasovun Azərbaycana gətirilib-gətirilməyəcəyi və onu hansı cəzanın gözlədiyi maraq doğurur. Məlumata görə, Abbas Abbasov Rusiya vətəndaşıdır. Gözlənilir ki, Abbas Abbasova da Ramiz Mehdiyevə verilən maddələr üzrə cəza təyin edilsin. Həmin maddələr üzrə nəzərdə tutulan cəza 20 ildən artıq müddəti əhatə edir. Qanunlara görə, Abbas Abbasov ömürlük azadlıqdan məhrum edilə bilməz, çünki qanunvericiliyə əsasən, 65 yaşdan yuxarı şəxslərə ömürlük həbs cəzası verilmir.

Qeyd edək ki, Abbas Abbasovun Rusiya vətəndaşı olması onun Azərbaycana ekstradisiyası məsələsini də hüquqi baxımdan mürəkkəbləşdirə bilər. Bu isə istintaq orqanlarının atacağı addımlardan asılı olacaq.

Abbas Abbasov Rusiya Federasiyasının vətəndaşıdırsa, bu ölkə konstitusiyası və digər qanunvericilik aktlarına əsasən öz vətəndaşlarını xarici dövlətlərə ekstradisiya etmir. Abbas Abbasov Rusiya vətəndaşlığından çıxarılarsa və ya üçüncü ölkədə saxlanılarsa, həmin ölkənin Azərbaycanla ekstradisiya müqaviləsi varsa, bu mümkün ola bilər.

Rusiyaya və Rusiyadan ekstradisiya məsələlərini tənzimləyən həm ikitərəfli müqavilələr, həm də Azərbaycan və Rusiya üçün tətbiq olunan beynəlxalq konvensiyalar mövcuddur. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında “Məhkəmə-hüquqi yardım və mülki, ailə və cinayət işlərində hüquqi münasibətlər haqqında” müqavilə iki ölkə arasında cinayətkarlıqla bağlı hüquqi yardım və prosedurlar tənzimləyir. Həm Azərbaycan, həm də Rusiya “Ekstradisiya haqqında” Avropa Konvensiyası və onun protokollarına qoşulub. Azərbaycan Konvensiyaya ratifikasiya əlavələri barədə qərarlar verib. Bu, tərəflər arasında ekstradisiya üçün multilateral mexanizm də yaradır. Konkret ekstradisiya sorğuları hüquqi yardım, konsul konvensiyaları və müvafiq qanunvericilik əsasında icra olunur. Cari işlər üzrə qərarlar isə məhz prokurorluq, ədliyyə orqanları və məhkəmə tərəfindən verilir. Praktikada çox vaxt belə hallar üçün İnterpol xətti ilə barəsində beynəlxalq axtarış elan edilir və şəxs üçüncü ölkədə saxlanılır.

❑ **“Yeni Müsavat”**



# Rəsul Quliyev torpağı 5 milyon manata, yoxsa dollara satıb?

## **Qalib Salahzadə:** “Qod Nisanov və atası evimə gələrək həmin torpağı onlara satmağımı təklif etdilər”

**Sabiq spiker Rəsul Quliyev Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Zağulba şosesində yerləşən torpaq sahəsini 5 milyon manata satıb. Satış əməliyyatı bu ayın əvvəlində baş tutub.**

Xatırladaq ki, sözügedən ünvandakı torpaq sahəsi və Rəsul Quliyevə məxsus digər əmlaklarla bağlı uzun müddət sabiq deputat, Şeyxülislam Allahşükür Paşazadənin qudası Qalib Salahzadə ilə məhkəmə çəkişməsi aparılıb. Həmin məhkəmə prosesi səbəbindən Rəsul Quliyev torpaq sahəsini uzun müddət sata bilmirdi.

Onu da qeyd edək ki, Rəsul Quliyev 1996-cı ildən ABŞ-də yaşayır. Onun ailə üzvləri 30 ildən sonra oktyabrın sonlarında Bakıya gəliblər.

Musavat.com-a danışan Qalib Salahzadə isə deyib ki, sözügedən torpaq sahəsini Rusiyada yaşayan Azərbaycan əsilli milyarder Qod Nisanov alıb. Qalib Salahzadənin sözlərinə görə, ona ata-babadan 4 hektar torpaq sahəsi miras qalıb və həmin ərazidə 8 ev tikilib.

O bildirib ki, illər əvvəl Rəsul Quliyev qeyri-qanuni yollarla bu torpağın 72 sotunu ələ keçirib: “Torpağın 12 sotu bacısının adına, 60 sotu isə kirvəsi Ağasif Şakiroğlunun adına "rəsmiləşdirilib". Uzun illərdir məhkəmələrə müraciət edirəm, çünki bu torpaq qanunla mənə məxsusdur. Hətta Rəsul Quliyevlə aramızda məhkəmə çəkişməsi gedən dövrdə Qod Nisanov və atası evimə gələrək həmin torpağı onlara satmağımı təklif etdilər. Mən isə bundan imtina etdim".

Qalib Salahzadə qeyd edib ki, sonradan Ağasif Şakiroğlu Sabunçu Rayon Məhkəməsinin hakimi ilə ailə qurub və işə məhz onun həyat yoldaşı baxıb: “Təbii ki, qərar ərinin xeyrinə verildi. Hazırda Apelyasiya Məhkəməsinə müraciət etmişəm. Orada da hakim yəhudidir və Qod Nisanovun adamıdır. Mənim xeyrimə qərar çıxarılmayacağını düşünürəm”.

Salahzadənin iddiasına görə, torpaq sahəsi qanunsuz şəkildə Həsənov Yalçın adlı şəxsin adına sənədləşdirilib: “Qod Nisanov bu bağı qanunsuz yollarla rəsmiləşdirib. Daha sonra isə Azərbaycan Milli Məclisinin sabiq spikeri, hazırda ABŞ-də yaşayan Rəsul Quliyevə 5 milyon dollar göndərilib. Dövlətə və hökumətə qarşı sərt çıxışlar edən bir şəxsə bu qədər vəsaitin ötürülməsi nə dərəcədə doğrudur? Bütün bunlar qanunsuz yollarla baş verir”.

# Nazirin yüksək vəzifə verdiyi üç kadr - dosyeləri

## Təhsilin İnkişafı Fondunun yeni sədri və Yüksək Texnologiyalar Parkının baş icraçı direktorunun müavini Qərbdə təhsil alıb

**Təhsilin İnkişafı Fondunun İdarə Heyətinə yeni sədr təyin olunub. “Yeni Müsavat” Nicat Məmmədlinin dosyesini təqdim edir. Nicat Məmmədli 1997-ci ildə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin politologiya ixtisasını, 1999-cu ildə isə BDU-nun (Azərbaycanda siyasi proseslər ixtisası üzrə) magistraturasını fərqlənmə diplomu ilə bitirib. 2002-ci ildə BDU-nun dissertanturasına daxil olub. 2010-cu ildə ABŞ-nin Qərbi İllinoys Universitetinin magistraturasını ictimai siyasət ixtisası üzrə bitirib.**

1999-2008-ci illərdə Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasında, 2003-2006-cı illərdə Hərbi Akademiyada müəllim işləyib.

2005-2007-ci illərdə Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ) Baş Katibi olub. 2006-2007-ci illərdə ABŞ-nin Kolumbiya Universitetində sosial siyasət üzrə universitet müəllimlərinin təkmilləşdirilməsi proqramında iştirak edib. Həmin müddətdə ARGTMŞ-in BMT-nin Nyu-York qərargahındakı təmsilçisi olub.

Nicat Məmmədli 2007-ci ilin iyun-dekabr aylarında İnsan Hüquqları üzrə Müvəkilinin (Ombudsman) aparatında uşaq hüquqları bölməsinin rəhbəri vəzifəsində çalışıb. 2008-2010-ci illərdə ABŞ-nin Qərbi İllinoys Universitetinin magistraturasında təhsil aldığı müddətdə həmin universitetdə müəllim assistenti işləyib.

2010-2013-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sosial infrastrukturun idarə edilməsi şöbəsində böyük mühəndis vəzifəsində çalışmış Nicat Məmmədli 2013-2018-ci illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərib.



Nicat Məmmədli

Nicat Məmmədli 2018-ci ildən Elm və Təhsil Nazirliyində Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri, nazirinin müşaviri kimi müxtəlif vəzifələrdə çalışıb.

İki monoqrafiya, 50-dən çox məqalə müəllifidir.

Elm və təhsil naziri Emin Əmrullayev Abutab Abbasova və Emin İsmayılovu Yüksək Texnologiyalar Parkının baş icraçı direktorunun müavinləri vəzifələrinə təyin edib.

Abutab Abbasova ADA Universitetində beynəlxalq münasibətlər ixtisası üzrə bakalavriat təhsili alıb, Qlazqo Universitetində tələbə mübadilə proqramında iştirak edib, SOAS London Universitetində isə inkişaf elmləri üzrə magistratura təhsilini başa vurub.



Abutab Abbasova    Emin İsmayılov

O, əmək fəaliyyətinə Xəzər Universitetində başlayıb. 2019-cu ildən etibarən Təhsil İnstitutunda müxtəlif vəzifələrdə çalışıb, 2021-2024-cü illərdə həmin qurumun təhsildə innovasiyalar şöbəsinin müdiri olub. Bununla yanaşı, Böyük Britaniya, Belçika Krallığı və ABŞ-da müxtəlif müəssisələrdə iş təcrübəsi qazanıb. A.Abbasova 2024-cü ildən indiyədək Yüksək Texnologiyalar Parkının baş icraçı direktorunun müşaviri vəzifəsini icra edib. Hazırda Bakı Dövlət Universitetində müəllim kimi də fəaliyyət göstərir.

Emin İsmayılov Türkiyənin Koç Universitetində biznesin idarəedilməsi ixtisası üzrə bakalavriat təhsili alıb və həmin ali təhsil müəssisəsində sahibkarlığın inkişafı üzrə ixtisaslaşma proqramını tamamlayıb. Əmək fəaliyyətinə "Baker Tilly Azerbaijan şirkətinin Biznes Məsləhətləri departamentində başlayıb. Daha sonra PAŞA Həyat Sığorta şirkətinin Strategiya və İnvestisiya departamentində fəaliyyət göstərib. Təyinatadək SABAH.HUB İnnovasiya Mərkəzinin Strategiya və Layihələrin İdarəolunması departamentində çalışıb.

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025



## Şahramanyandan “mən satqın deyiləm” açıqlaması

**Keçmiş Qarabağ separatçılarının sonuncu başçısı Samvel Şahramanyan İrəvanda şahid qismində dindirilib.**

Şahramanyanın jurnalistlərə bildirdiyinə görə, İstintaq Komitəsində dindirilmə 44 günlük müharibə ilə deyil, 2023-cü ilin hərbi əməliyyatları və onların nəticələri ilə bağlı olub.

İlkin istintaqın məxfiliyi səbəbindən o, təfərrüatları açıqlamayıb. Şahramanyan izah edib ki, heç vaxt hüquq-mühafizə orqanlarına gəlməkdən və sualları cavablandırmaqdan yayınmayıb.

Şahramanyan deyib ki, Azərbaycan tərəfinin əlinə keçən separatçı liderlərin koordinatlarının qarşı tərəfə onun tərəfindən verildiyi barədə iddialar doğru deyil. O, Ruben Vardanyan, Araik Arutyunyan, Arkadi Qukasyan və digərlərini satmadığını söyləyib: “Azərbaycan tərəfi kimin harada olduğunu çox yaxşı bilirdi. Ruben Vardanyan hansısa sığınacaqda, bunkerdə, meşədə deyildi və ya alternativ yollarla çıxmağa çalışarkən saxlanılmayıb. O, hamı kimi, Ermənistana yeganə işlək yol - Laçın dəhlizi vasitəsilə keçməyə cəhd edib”.

Şahramanyanın sözlərinə görə, Ruben Vardanyan Həkəri çayı üzərindəki körpüdə saxlanılıb. O bildirib ki, Azərbaycan tərəfi həmçinin Kamo Vardanyanın (qondarma “artsaxın keçmiş müdafiə naziri”) həbs olunmasına çalışıb. Rəsmi Bakı onu da əsir götürmək niyyətində olduğu şəxslərin siyahısına daxil edib. Kamo Vardanyan 2024-cü ilin avqustunda Ermənistan müdafiə nazirinin müşaviri təyin edilib.



## II Qareginin yerinə yeni katolikos

**Ermənistanın baş naziri Nikol Paşinyan bütün ermənilərin katolikosu II Qareginin yerinə namizəd tapıb. Armlur.am saytının məlumatına görə, Navasard Kçoyan Katolikosluğun yeni rəhbəri vəzifəsinə hazırlanır. Saytın yazdığına görə, baş nazir Nikol Paşinyan tərəfindən dərc edilmiş “Erməni Apostol Kilsəsinin yenilənməsi üçün Yol Xəritəsi” bir çoxları tərəfindən təkcə kilsənin islahat təklifi kimi deyil, həm də onun üzərində dövlət nəzarətinin qurulması üçün siyasi plan kimi qəbul edilir.**

Paşinyanın təqdim etdiyi addımların ardıcıllığı belədir: əvvəlcə katolikosluğun vitse-rəhbərinin seçilməsi, sonra isə bütövlüyü, maliyyə şəffaflığı, siyasətdənkənarlığı və vergi uyğunluğunu tələb edən Kilsə Qaydaları Məcəlləsinin qəbul edilməsi və nəhayət, bütün ermənilərin katolikosu üçün yeni seçkilər.

“Siyasi dairələrdə mövcud prosedura uyğun olaraq, bütün ermənilərin katolikosu II Qaregin vəzifəsindən kənarlaşdırılarsa, Ararat yeparxiyasının primatı Navasard Kçoyanın rahib ola biləcəyi barədə fərziyyələr mövcuddur”, - sayt yazıb.

# İki kəndimizi qaytarsalar, milyonlar qazanacaqlar

## Rəsmi İrəvanın “bir addım irəli, iki addım geri” siyasətinə baxmayaraq, Azərbaycan sülhə doğru daha bir tarixi addım atdı - Ermənistana neft məhsulları göndərildi




**Rəsmi İrəvanın “bir addım irəli, iki addım geri” siyasətinə baxmayaraq, ölkəmiz sülhə sadiqliyini bir daha əməli olaraq nümayiş etdirdi. Belə ki, Azərbaycan tərəfindən Ermənistana AI-95 markalı benzin ixracı həyata keçirilib. Musavat.com xəbər verir ki, SOCAR istehsalı olan yanacaqdan ümumilikdə 22 vaqon göndərilib. Mənbənin qeyd etdiyinə görə, bu ixrac tamamilə kommersiya xarakteri daşıyır və hər hansı siyasi və ya xüsusi razılaşma çərçivəsində həyata keçirilmir. Məlumata görə, AI-95 markalı benzinin ixracı regionda enerji bazarında formalaşan mövcud tələbat fonunda həyata keçirilib və proses neytral, açıq bazar mexanizmlərinə uyğun şəkildə icra olunub.**

Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə Azərbaycan Prezidentinə təşəkkür edib. Ekspertlər düşünürlər ki, məhz Qazax-İcevan yolu Ermənistana taxıl və neft daşınması üçün ən yaxşı yoldur və bərpa edilməlidir. Aydın məsələdir ki, bu, Gürcüstan üçün iqtisadi baxımdan heç də arzuolunan mənzərə deyil. Çünki bu tranzitdən qazanılan milyonlar indi Ermənistanın qazancına çevrilə bilər. Ekspertlər qeyd edir ki, dəmir yolunun bərpasının sürətlənməsi üçün Ermənistandakı eksklavlarımızın qaytarılmasına zərurət var. Xüsusilə də dəmir yolu xəttinin keçdiyi kəndlər - Sofulu və Bərxudarlı kəndlərinin qaytarılması və sürətli olaraq, Qazaxdan həmin kəndlərə həm avtomobil, həm də dəmir yolunun inşası ən real yoldur. Azərbaycan bu istiqamətdə işləri tez həyata keçirə bilər.

**Politoloq, siyasi elmlər doktoru Elşad Mirbəşir “Yeni Müsavat”a açıqlamasında öncə bəzi xatırlatmalar etdi:** “Bir neçə gün öncə Ermənistan parlamentinin spikeri Alen Simonyan gələn ilin birinci rübündə sərhədlərin növbəti hissəsində demarkasiya prosesinin həyata keçiriləcəyini bildirdi. Bunun hansı istiqamətdə ediləcəyi ilə bağlı suala isə cavab vermədi və bu haqda aydın təsəvvürlərə malik olmadığını dedi. Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyası davamlı müzakirə predmetidir və bu məsələ kifayət qədər aktualdır. Artıq ölkəmiz Ermənistana tranzit yükdaşımaları na şərait yaratmaqdadır. Bununla biz bir daha sülh ritorikasında tam səmimi olduğumuzu nümayiş etdiririk. Qazaxıstandan, Rusiyadan yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana çatdırılması təcrübəsi artıq yarandı. Noyabr ayında Rusiyadan ilk buğda partiyası Azərbaycan ərazisindən keçməklə Ermənistana çatdırıldı. Bunun ardınca Qazaxıstan taxılının da Azərbaycan vasitəsilə Ermənistana göndərilməsi ilə bağlı razılıq əldə olundu. Bütün bunlar regionda iqtisadi layihələrin həyata keçirilməsi, kommunikasiyaların açılması kimi mühüm prosesin komponentləridir”. **E.Mirbəşir qeyd etdi ki, Azərbaycanla Ermənistan arasında mal dövriyyəsi imkanlarının da yaradılması istiqamətində müəyyən hərəkətlənmə müşahidə olunmaqdadır:** “Belə ki, noyabr ayının 28-də Şahin Mustafayevlə Ermənistan baş nazirinin müavini Mher Qriqoryan arasında Qəbələdə baş tutmuş görüş çərçivəsində ölkəmizdən neft və neft məhsullarının Ermənistana ixrac edilməsi məsələsi də müzakirə olundu. Sözsüz ki, bu daha dinamik şəkildə nəqliyyat istiqamətlərinin müəyyənləşdirilməsi və sərhəd xətlərinin dəqiqləşdirilməsi işlərinin aparılmasını tələb edir. Bu mənada bu gün belə bir mövqe mövcuddur ki, Qazax-İcevan istiqamətində yüklərin Ermənistana ötürülməsi daha əlverişlidir. Müvafiq olaraq, məhz həmin istiqamətdə sərhədlərin növbəti mərhələdə demarkasiyasının aparılmasının prioritet olacağını düşünmək mümkündür”.

**Politoloqun fikrincə, atılacaq ilkin addım Azərbaycan eksklavlarının dövlətimizin nəzarəti altına qaytarılmasından ibarət olmalıdır:** “Düşünürəm ki, Ermənistan rəsmiləri də bunun zəruriliyini dərk edir. Sözsüz ki, bütün proseslər Azərbaycan dövlətinin haqlı və güc mövqeyinin təsiri altında cərəyan etməkdədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin iradəsi və strateji yanaşması ölkəmizin ədalətli mövqelərini etibarlı şəkildə qorumaqda və təmin etməkdədir. Müvafiq olaraq, biz istisnasız olaraq hər qarış torpağımız üzərində suverenliyimizi tam bərpa etmək gücünə və iradəsinə sahib olduq. Eləcə də Qazax istiqamətində tranzit xətlərin keçəcəyi ərazilərlə bağlı ölkəmizin haqlı gözləntiləri təmin olunmalıdır. Nikol Paşiyan bunun alternativinin olmadığını etiraf da edərək deyib ki, ya əraziləri qaytarmalıyıq, ya da müharibə qaçılmaz olacaq. Növbəti müharibənin isə Ermənistana necə baha başa gələcəyi haqqında həm Ermənistan rəhbərliyində, həm də cəmiyyətində aydın təsəvvürlərin olduğu şübhəsizdir. Bu baxımdan, hesab edirəm ki, çox yaxın gələcəkdə, elə gələn ilin ilk rübündə ilkin olaraq Qazax-İcevan istiqamətində sərhədlərin dəqiqləşdirilməsi və demarkasiyası istiqamətində addımlar atıla bilər. Çünki dəmir yolu xəttinin və avtomobil yolunun çəkilməsi və ya bərpa olunması üçün Qazax rayonunun Sofulu və Bərxudarlı kəndlərinin dövlətimizin nəzarətinə qaytarılması mütləqdir. Sözsüz ki, bu, bütün hallarda baş verməlidir. Sadəcə olaraq, indiki kommunikasiyaların açıldığı bir şəraitdə sözügedən məsələdə daha da çevik addımların atılması gözləniləndir”. **Ekspert qeyd etdi ki, Azərbaycan-Ermənistan sərhədlərinin təxminən 12 km-lik hissəsinin artıq delimitasiyası və demarkasiyası aparılıb:** “1000 km-dən artıq sərhəd xəttinin dəqiqləşdirilməsi isə uzunmüddətli prosesdir. Buna baxmayaraq, məsələ aktualdır və tərəflər arasında əsas müzakirə predmetlərindəndir. Bununla yanaşı, bir sıra məqamlara da diqqət yetirmək lazımdır. Belə ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyası imkanlarının yaranmasından Gürcüstanın müəyyən narahatlıq keçirdiyi müşahidə olunmaqdadır. Eləcə də, İran Zəngəzur dəhlizinin açılmasından narahatlıq keçirir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, həm Gürcüstanda, həm də İranda tranzit yükdaşımalarından gələn gəlirlərin itiriləcəyi düşüncəsi mövcuddur. Bu gün Gürcüstan ərazisindən Ermənistana təxmini 2 milyon tona qədər yük ötürülməkdədir. Buna baxmayaraq, iştirakçı tərəflərin öz maraqları var və ayrıca olaraq, regionda kommunikasiyaların açılması regionun bütün ölkələrinin gələcəyi üçün əhəmiyyətlidir”. **E.Mirbəşir Bakı ilə İrəvanın mövqeyi arasındakı fərqə də diqqət çəkdi:** “Azərbaycan tərəfi öz addımları ilə nümayiş etdirir ki, regionda kommunikasiyaların açılması üçün iradəyə sahib olmaqla yanaşı, həm də lazım olan bütün praktiki addımları atır. Lakin Ermənistan haqqında eyni sözləri demək olmaz. Sanki Ermənistan yenə də nəyisə gözləyir. Ya da bizim coğrafiyamızdan kənarda yerləşən siyasi dairələr yenidən regionda gərginlik elementlərini yaratmağa və mövcud sülh imkanlarını məhdudlaşdırmağa çalışırlar. Bu mənada, bir neçə gün öncə Aİ ilə Ermənistan arasında imzalanmış sənəddə regiondakı reallıqların təhrif olunmasını bu istiqamətdə cəhd kimi nəzərdən keçirmək olar. Lakin Ermənistan rəhbərliyi nəzərə almalıdır ki, bu gün onun təcrid vəziyyətindən çıxması üçün tarixi şanslar yaranıb. Çünki vaxtilə Azərbaycana qarşı təcavüzkar və işğalçılıq siyasətini həyata keçirməklə, Ermənistan özünü bütün perspektivli layihələrdən təcrid etmişdir. Bu gün isə Ermənistan üçün yeni əməkdaşlıq və təmaslar imkanı yaranmışdır. Əgər Ermənistan sağlam məntiqə söykənəcəksə, mövcud imkanlardan yararlana biləcək. Əks təqdirdə, tarixi imkanları yenidən əldən vermiş olacaq”.

**E.PAŞASOY,
“Yeni Müsavat”**

# NATO-nun Azərbaycan planının şifrələri

## 2025-ci il ölkəmizlə Şimali Atlantika bloku arasında əməkdaşlıq çox uğurlu oldu - Kremlə yaxın medianın narahatlığı...

**Yola salmağa hazırlaşdığımız il Azərbaycan-NATO əməkdaşlığı üçün uğurlu oldu. Bu əməkdaşlıq özündə yalnız hərbi sahəni əhatə etmir, həm də strateji tərəfdaşlıq, humanitar təhlükəsizlik və regional sabitlik aspektlərini birləşdirir.**

Bu ilin əvvəlində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev NATO mənzil qərargahına səfər edib. Fevral ayında isə ölkəmizin ilk dəfə Dəniz Təhlükəsizliyi üzrə Mükəmməllik Mərkəzinə (DGMM/MARSEC COE) üzv qəbul edilməsi ilə bağlı texniki saziş imzalanıb. Bu il Milli Məclisin NATO Parlament Assambleyasındakı nümayəndə heyəti də Brüsseldə işgüzar səfərlər edib. Prezidentin köməkçisi Hikmət Hacıyev sentyabr və noyabr aylarında NATO mənzil-qərargahına səfər edib. Səfər çərçivəsində tərəflər Azərbaycan-NATO tərəfdaşlığının mövcud vəziyyəti, gələcək əməkdaşlıq perspektivləri, eləcə də regional və daha geniş təhlükəsizlik mühiti ilə bağlı məsələlər ətrafında müzakirələr aparıb. Sentyabr ayında Azərbaycan NATO-nun əsas mülki fövqəladə halların idarə edilməsi üzrə təlimi olan "BULGARIA 2025" təlimində iştirak edib.

Noyabr ayında NATO-nun Şimali Atlantik Şurası (ŞAŞ) səfirlərindən ibarət nümayəndə heyəti ilk dəfə olaraq Azərbaycana səfər edib. Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Fransa Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxil olub. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə də görüşüblər.

Bugünlərdə isə "NATO-nun 16 günü" çərçivəsində Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi, kontr-admiral Yusuf Karagüllenin başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. Səfər zamanı Müdafiə Nazirliyində və Heydər Əliyev adına Hərbi İnstitutda aparılan müzakirələr, həmçinin Quru Qoşunlarının və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrinə baxış Azərbaycanın NATO ilə münasibətlərinə verdiyi önəmi nümayiş etdirib. Tədbirlərdə qeyd olunub ki, Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində ölkəmiz beynəlxalq təhlükəsizliyin təminatında fəal iştirak edib. Azərbaycan Ordusunun şəxsi heyətinin sülhməramlı missiyalardakı fəaliyyəti qlobal təhlükəsizliyə dəyərli töhfə kimi qiymətləndirilib.




Məlum olub ki, NATO Baş katibinin müavini Radmila Şekerinska yanvar ayında Azərbaycana səfər edəcək. Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Vyanada keçirilən 32-ci Nazirlər Şurasının iclası çərçivəsində Şekerinska ilə görüşüb. Görüş zamanı Azərbaycan NATO arasında əməkdaşlıq gündəminə daxil olan təhlükəsizlik, müdafiə, enerji təhlükəsizliyi, kritik infrastruktur obyektlərinin qorunması, təhsil və digər məsələlər, həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Maraqlıdır ki, Radmila Şekerinskayanın İrəvana səfəri kontekstində Ermənistan parlamentinin Xarici işlər üzrə daimi komitəsinin sədri Sarqis Xandanyan "Ermənistanın NATO ilə əməkdaşlığı üçün konkret çərçivəsi var, lakin ona qoşulmaq ambisiyası yoxdur", - deyə bəyan edib. "NATO-nun Ermənistanda olması mümkün deyil, çünki birincisi, Ermənistanın alyansa qoşulmaq ambisiyası yoxdur. Ölkənin NATO ilə əməkdaşlıq üçün konkret çərçivəsi var və bu, heç bir şəkildə NATO-nun Ermənistanda fiziki iştirakını nəzərdə tutmur", - o bildirib.

Qeyd edək ki, Azərbaycan-NATO əlaqələri bu il ərzində Rusiyanın xüsusi diqqətində olub, Kremlə yaxın media bu münasibətlərə qarşı qərəzli mövqeyi ilə seçilib.

NATO ilə Rusiya münasibətlərinin 2026-cı ildə daha da gərginləşəcəyi gözlənilir. Azərbaycanla Alyans arasındakı münasibətlərə təsir göstərə bilərmi? NATO-nun Bakıdan istədiyi nədir?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, siyasi şərhçi İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanla NATO arasında əlaqələr inkişaf edir və xüsusilə bu əlaqələr 2020-ci il Vətən müharibəsindən sonra keyfiyyətcə yeni mərhələyə qədəm qoyub: "Amma hesab edirəm ki, burada nəinki NATO-Azərbaycan əməkdaşlığının yeni fazaya qədəm qoymasından danışmalıyıq, digər tərəfdən, həm də alyansın ən önəmli geosiyasi aktorlarından biri olan Türkiyə ordusu modelində Azərbaycanda ordu quruculuğunun inkişafını qeyd etməliyik. Yəni məsələyə birbaşa NATO-Azərbaycan əməkdaşlığının daha da dərinləşməsi kontekstində baxılmamalıdır. Burada qardaş Türkiyənin hərbi, hərbi-texnoloji sahədə əldə etdiyi nailiyyətlərin Azərbaycan Ordusunda tətbiqi rakursundan dəyərləndirilməlidir. Azərbaycan-NATO əməkdaşlığı Rusiyanı narahat edirsə, bu, Rusiyanın narahatlığı və problemidir. Çünki Azərbaycan müasir standartlara malik orduya nail olmaq məqsədini irəli sürüb. Xüsusilə yeni çağırışlar fonunda bu, önəmli milli təhlükəsizlik prioritetidir. Digər tərəfdən, süni intellektin, müasir ordu quruculuğu istiqamətində əldə olunan yeniliklərin Azərbaycan Ordusunda tətbiqi də bu gün gündəlikdədir. Düşünürəm ki, NATO ilə Rusiya arasında olan gərginliyin Azərbaycan-NATO münasibətlərinə təsiri çox az ola bilər. NATO ilə əməkdaşlıq edən dövlətləri Rusiya öz təhdid siyahısına salsa, bu da qəbul olunan deyil".

Ekspert onu da nəzərə almağı vacib hesab edir ki, Azərbaycan-ABŞ münasibətləri inkişaf edir və NATO-da əsas söz sahibi, güc mərkəzi Birləşmiş Ştatlardır: "İstər NATO, istər ABŞ Azərbaycanla hərbi əlaqələri də gücləndirmək istəyir. "907-ci düzəliş"lə bağlı ABŞ prezidentinin verdiyi qərar da müdafiə sənayesi sahəsində əməkdaşlığa yol açacaq və NATO-Azərbaycan münasibətlərini də yeni mərhələyə çıxaracaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Bakıdan Avropa İttifaqına daha bir etiraz

## Spiker qurumun Azərbaycandakı nümayəndəliyinin rəhbərinə nələr deyib? Adı və mahiyyəti arasında ciddi fərq olan Sülh Fondu isə...

**Milli Məclisin sədri Sahibə Qafarova Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçlə görüşüb. Spiker Sahibə Qafarova "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də Azərbaycan-Ermənistan sülh prosesi baxımından narahatlıq doğuran məqamlara toxunub.**



Bu arada isə Macarıstan Avropa Sülh Fondu çərçivəsində Ermənistana 20 milyon avroluq hərbi yardımın ayrılmasına vetonu ləğv edib. Bu barədə "AzadlıqRadiosu"nun Avropa bürosunun redaktoru Rikard Yozviak öz mənbələrinə istinadən xəbər yayıb. Onun sözlərinə görə, qərarın yanvarda elan olunacağı gözlənilir.

Ötən ilin iyulunda Ermənistan Aİ-dən ilk dəfə 10 milyon avro dəyərində hərbi yardım alıb. Bu pul növbəti iki il yarım ərzində səhra xəstəxanasının yaradılmasına və bir batalyonluq erməni ordusu bölməsi üçün yardımçı obyektlərin yaradılmasına sərf edilməli idi. Bundan əvvəl Brüsselin Avropa Sülh Fondu vasitəsilə hərbi məqsədlər üçün Ermənistana 20 milyon avro ayırması qərarına Budapeşt tərəfindən veto qoyulub. Macarıstan xarici işlər naziri Peter Siyarto 2025-ci ilin mayında İrəvanda keçirilən beynəlxalq konfransda bu məsələyə toxunub. Siyarto bəyan edib ki, Macarıstan Avropa Sülh Fondunun Ermənistana 20 milyon avro ayırmasına qarşı deyil, amma regionda balansı qorumaq üçün Azərbaycana da eyni səviyyədə yardım ayrılmalıdır.

Avropa Sülh Fondu Aİ-nin dinc məqsədlərlə fəaliyyət göstərən təhlükəsizlik və müdafiə təşəbbüsüdür. Lakin son illərdə Ukrayna, Moldova və Ermənistan kimi ölkələrə verdiyi dəstəyin forması bu fondun daha çox geosiyasi və hərbi təzyiq alətinə çevrildiyini sübut edir. Ermənistan bu imkanlardan istifadə edərək, özü üçün hərbi baza formalaşdırmağa çalışır. Əgər bu fond həqiqətən "sülh" məqsədi daşıyırsa, bəs niyə Ermənistan bu vəsaiti yalnız silahlanmaya yönəldir? Bəs sülhə xidmət edən diplomatik institutlar, infrastruktur layihələri, təmas xətləri ətrafında etimad quruculuğu təşəbbüsləri niyə bu fondun gündəmində deyil?

**Politoloq Yusif Bağırzadə** "Yeni Müsavat"a bildirdi ki, Məlumdur ki, Avropa Sülh Fondu 2021-ci ildə yaradılıb və rəsmi olaraq Avropa İttifaqı üzvü olmayan ölkələrdə təhlükəsizlik və müdafiənin gücləndirilməsinə dinc məqsədlərlə xidmət edən təşəbbüs kimi təqdim olunur: "Fondun əsas məqsədi guya ki, regional sabitliyi qorumaq, münaqişə risklərini azaltmaq və Aİ-nin təhlükəsizlik arqumentlərini dəstəkləməkdir. Nəzəri baxımdan, Sülh Fondu sülh və etimad quruculuğu layihələrini maliyyələşdirməli, diplomatiya və sosial infrastruktur təşəbbüslərinə dəstək verməlidir. Lakin son illərdə Ukrayna, Moldova və Ermənistanın fonddan aldığı yardımlar göstərir ki, praktikada bu təşəbbüs daha çox geosiyasi və hərbi təsir alətinə çevrilib.

Ermənistanın fonddan aldığı yardımların əsasən hərbi baza, silahlanma və səhra hospitalı infrastrukturuna yönəlməsi bu tendensiyanı aydın şəkildə ortaya qoyur. Odur ki, Aİ-nin nəzərdə tutduğu "Sülh Fondu" anlayışı, yenə də təkrar edirəm, faktiki olaraq strateji və hərbi təsir vasitəsinə çevrilir. Ermənistanın hərbi ehtiyaclarını gücləndirməsi, sərhəd və münaqişə sonrası vəziyyətlə əlaqədar müdafiə qabiliyyətini artırmaq istəyi fondun mahiyyətinə uyğun gəlmədiyi halda, Aİ öz maraqlarını əsas götürərək bu "dəstəyi" davam etdirir. Nəticədə fond, adının əksinə olaraq, sülh təşəbbüsü deyil, regional təsir mexanizmi kimi çıxış edir".

**Politoloqun sözlərinə görə, bu paradoksal vəziyyətin səbəbləri açıqdır:** "Diplomatik, iqtisadi və sosial infrastruktur layihələri fondun gündəmində ikinci plana düşür, çünki Aİ üçün tez və görünən nəticələr yaratmaq hərbi dəstəkdən daha çətindir. Silah, hərbi baza və texniki avadanlıqlar isə həm regional güc balansını sürətlə dəyişir, həm də Ai-yə siyasi təsir imkanı təmin edir. Eyni zamanda fondun idarəçiliyi üzv dövlətlərin strateji maraqlarına bağlıdır və bəzi üzvlər üçün hərbi yönümlü yardımlar diplomatik təşəbbüslərdən daha prioritetdir".

**Y.Bağırzadə sonda qeyd etdi ki, Avropa Sülh Fondu ilə bağlı bu təcrübə Aİ-nin sülh adını daşıyan təşəbbüslərinin praktik olaraq geosiyasi maraqlarla formalaşdığını göstərir:** "Fond adətən regionda hansı ölkənin güc balansını dəyişmək istəyirsə, onun xeyrinə hərbi dəstək ayırır. Bu isə fondun adının və mahiyyətinin arasında ciddi fərq yaradır və Aİ-nin sülh strategiyasının mahiyyətini mübahisəli edir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Türk dövlətlərinə qarşı dezinformasiya dalğası

## Ankarada mühüm forum keçirildi




**"Dezinformasiyaya qarşı dayanıqlı mübarizə modelləri ölkələrin media ekosistemi üçün strateji əhəmiyyət kəsb edir. Yalan məlumatlar, təxribat məqsədilə yayılan xəbərlər tarixin bütün dövrlərində insanların kütləvi şüuruna təsir göstərən ciddi amil kimi dəyərləndirilsə də, bu, son zamanlar ölkələrin sosial-mədəni səviyyəsindən asılı olmayaraq, hər kəsin düşüncəsinə daha geniş miqyasda təsir göstərməyə başlayıb". Moderator.az xəbər verir ki, bu fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov dekabrın 18-də Ankara şəhərində keçirilən "Türk dövlətlərinin dezinformasiya ilə mübarizə forumu"nda çıxışı zamanı səsləndirib.**

Ə.İsmayılov qeyd edib ki, bir zamanlar dezinformasiya dalğası yalnız siyasi məzmun daşıyır və ənənəvi medianın kontent manipulyasiyası vasitəsilə yayılırdısa, indi mənzərə tamamilə dəyişib: "İndi media manipulyasiyaları ilə yanaşı, texnoloji inkişafın gətirdiyi yeniliklər də yalan məlumatların sürətlə yayılmasına imkan yaradır. Bu baxımdan, istənilən ölkə məzmunundan asılı olmayaraq dezinformasiya dalğasının hədəfinə çevrilə bilər".

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun sözlərinə görə, Türk dövlətləri də belə sistemli informasiya təhdidlərinə məruz qalır. Qeyd edib ki, mürəkkəb coğrafiyalarda yerləşmiş türk ölkələrinin geopolitik fəallığı artdıqca dezinformasiya dalğasının da miqyası genişlənir. "Bu tendensiya bizim ümumi problemimizdir və onun həlli, cəmiyyətlərimizin müqavimətinin gücləndirilməsi hamımızın birgə səyindən, həmrəyliyindən birbaşa asılıdır", - deyə Ə. İsmayılov vurğulayıb.

Medianın İnkişafı Agentliyinin rəhbəri bildirib ki, Azərbaycanda dezinformasiya problemi ölkəmizin beynəlxalq nüfuzu artmaqda davam etdikcə özünü daha qabarıq şəkildə büruzə verir: "Xüsusilə ölkəmizdə keçirilən böyük beynəlxalq tədbirlər zamanı müxtəlif qarayaxma kampaniyalarının şahidi oluruq. Bu kampaniyalar çaşqınlıq və qeyri-sabitlik səpmək üçün nəzərdə tutulur, çox vaxt bizim reputasiyamıza xələl gətirmək məqsədi daşıyan yalan hekayələr formasında özünü göstərir".

Bu kimi zərərli tendensiyaları aradan qaldırmaqda peşəkar medianın üzərinə ikiqat məsuliyyət düşdüyünü bildirən Ə.İsmayılov, hər bir ölkənin doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin möhkəmləndirilməsinin əsas məqsəd olduğunu deyib.

# İran telekanalı "Yeni Müsavat"ı hədəf aldı

## Bu hücumlarla eyni zamanda İran özünün Avropadakı, Azərbaycandakı və dünyanın müxtəlif ölkələrindəki agentura şəbəkəsinə işarələr, kod mesajlar ötürür

**İranın kəşfiyyat strukturlarına bağlı Azərbaycan dilli "Seher Azeri" televiziya kanalı "Mehdiyev işi" başlanandan dərhal sonra "Yeni Müsavat" Media Qrupunu və media qrupun rəhbəri Rauf Arifoğlunu sistemli şəkildə hədəfə almağa başlayıb.**

Paralel olaraq İranın farsdilli qəzetləri və televiziya kanalları da eyni xətti davam etdirərək "Yeni Müsavat" nəşrlərini açıq şəkildə hədəf göstəriblər.

Bu proses təsadüfi deyil və epizodik xarakter daşımır. İran mediasında yayımlanan materiallarda "Yeni Müsavat" Media Qrupunun Azərbaycan və İranla bağlı yazıları "təftiş" edilir, media qurumunun yazarları birbaşa hədəfə çevrilir, "İrana təhlükə yaratmaq" kimi saxta narrativlər formalaşdırılmağa çalışılır. Son dövrlərdə isə bu hücumlar daha intensiv, daha açıq və daha təhdidkar xarakter alıb.



www.musavat.com

YENİ MÜSAVAT

Xəbər

Leysan xəbərdarlığı: Bakıda "köhnə hamam, köhnə tas..."

...racısı: Rauf Arifoğlu Gündəlik qəzet 10 dekabr 2025-ci il Çərşənbə № 224 (8834) Qiyməti 60 qəpik

Gündəm

...PAH Bakını yenə ...ezərdən "vurur"

...rezidentin Slovakiya ...əfəri münasibətlərin ...eni mərhələsidir

...rməni yalanını ...merikalı alim ifşa etdi

...əsmi Bakı bu dəfə Yunan ...ipri ilə eyni masada

...azıçı Anarın təklifinə etiraz

...MEA prezidentinin baldızı oğlu ...ünü niyə öldürüb?

...gün "Qarabağ"-"Ayaks" ...rşılaşması olacaq

...alq Cəbhəsi KQB-nin oyunu idi"

"SƏHƏR TV" RAMİZ MEHDİYEVİN MÜDAFİƏSİNDƏ

İran dövlətinin maliyyəsi ilə fəaliyyət göstərən telekanal Rusiya ilə işbirliyində suçlanan "boz kardinal"a niyə qahmar çıxdı?

Sahar TV

SAHAR

Təqdim edilən videoanons İranın geniş auditoriyaya hesablanmış böyük bir verilişinə aiddir.

Həmin proqramda "Yeni Müsavat"ın Ramiz Mehdiyev işi fonunda Azərbaycanda baş verən son həbslərlə bağlı fəaliyyəti birbaşa hədəf alınır. Verilişdə media qurumunun rəhbəri Rauf Arifoğlu və millət vəkili Fazil Mustafa açıq şəkildə hədəf göstərilir. Bu da təsadüf deyil.

İran rejimi açıq şəkildə hesab edir ki, onun Azərbaycana qarşı apardığı ideoloji, siyasi və kəşfiyyatyönümlü təxribatların qarşısında duran əsas media qalalarından biri məhz "Yeni Müsavat"dır. Elə bu səbəbdən də həm cavab xarakterli, həm də preventiv mahiyyət daşıyan zərbələr endirməyə çalışır.

Bu hücumlarla eyni zamanda İran özünün Avropadakı, Azərbaycandakı və dünyanın müxtəlif ölkələrindəki agentura şəbəkəsinə işarələr, kod mesajlar ötürür.




Ancaq bu mənzərədə diqqət çəkən və izah tələb edən daha bir ciddi məqam var. Necə olur ki, Azərbaycanda teokratik rejim qurmaq, mövcud sekulyar dövlət sistemini dəyişmək niyyəti güdən İran rejimi və onun ideoloji şəbəkəsi özünü guya "qərbyönlü" kimi təqdim edən Milli Şura və AXCP rəhbərliyini, xüsusilə də Əli Kərimli çevrəsini bu qədər aktiv şəkildə müdafiə edir?

Bu sualın cavabı hadisələrə ardıcıl və faktlar əsasında baxıldıqda aydınlaşır. Əli Kərimli AXCP çevrəsi ilə İran strukturları və İrana bağlı qruplar arasında əlaqələr təsadüfi deyil, uzunmüddətli və dərin xarakter daşıyır. Bu kontekstdə vaxtilə "Müsəlman Birliyi Hərəkatı"nın lideri olmuş Taleh Bağırzadə ilə Əli Kərimli arasındakı xüsusi və isti münasibətlər diqqətdən kənarda qala bilməz.

Onlar uzun illər bir-birini açıq şəkildə müdafiə ediblər. Taleh Bağırzadə həbs olunduğu dövrlərdə AXCP-yə yaxın media strukturları, sosial şəbəkə resursları və kanallar onu açıq şəkildə müdafiə edib. Eyni zamanda Əli Kərimli hədəf alındığı vaxtlarda Taleh Bağırzadə və "Müsəlman Birliyi Hərəkatı" adından onun lehinə açıqlamalar verilib. Bu qarşılıqlı siyasi və ideoloji dəstək mexanizmi təsadüf sayıla bilməz.

Bütün bu faktlar onu göstərir ki, İran kəşfiyyatı ilə AXCP rəhbərliyi, xüsusən Əli Kərimli və Cəmil Həsənli arasında ciddi və təhlükəli bağlılıqlar mövcuddur. Əks halda, İran niyə Azərbaycanın aparıcı media qurumlarından biri olan "Yeni Müsavat"ın üzərinə bu qədər intensiv, ardıcıl və açıq təhdid xarakterli hücumlar təşkil etsin?

Bu hücumlar eyni zamanda bir reallığı da ortaya qoyur: İran rejiminin bu davranışı bizi narahat etmir. Əksinə, bu, bizim üçün bir şərəfdir. Çünki biz Azərbaycan dövlətinə, bayrağına, milli varlığına düşmən olan, qanı tökülmüş bir teokratik rejimə qarşı informasiya və ideoloji müqavimətin simvollarından biriyik. İranın Azərbaycandakı təsir imkanlarının daraldılmasına töhfə verən media mövqeyindəyik.

Eyni zamanda unutmuruq ki, İran terrorçu dövlətdir. Azərbaycan ərazisində dəfələrlə terror aktları həyata keçirib. O cümlədən iki il əvvəl, mart ayında millət vəkili Fazil Mustafaya qarşı törədilən terror aktı da bu siyasətin tərkib hissəsi idi. Bu faktlar unudulmur və unudulmamalıdır.

Ümid edirik ki, müvafiq dövlət qurumları və təhlükəsizlik strukturları İranın "Yeni Müsavat" Media Qrupuna qarşı apardığı bu ideoloji hücumları diqqətlə izləyir, səbəblərini araşdırır və bu hücumlara qarşı adekvat tədbirlər görülür. Azərbaycanın milli informasiya təhlükəsizliyinin qorunması baxımından bu məsələ son dərəcə prinsipialdır.

❑ **"Yeni Müsavat"**

# Tehranla Moskvanın dəhliz narahatlığı

## Tofiq Zülfüqarov: "Rusiya deyir ki, bölgədə təhlükəsizliyi təmin edən onun əsgəridir, İran isə..."




**"Moskva və Tehranın məqsədi bölgədə gedən proseslərdə yer almaqdan ibarətdir. Bunun üçün də müxtəlif bəhanələr axtarırlar. Həm də bununla ABŞ-nin bölgədə sülh yaratmaq və kommunikasiyaların açılması ilə bağlı təşəbbüslərinə də şərik çıxmaq niyyətləri var. Amma bunu nə şəkildə edəcəkləri ilə bağlı yollar düşünürlər. Sözsüz ki, burada bir çox məsələlər Ermənistandan asılıdır. Danışıqlar məhz İrəvan administrasiyası ilə aparıldığına görə bu onların gərəyi bir işdir". Azərbaycanın sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Teleqraf"a açıqlamasında belə deyib.**

"Rusiyanın dəhlizlə bağlı iddiaları nədən ibarətdir" sualına sabiq nazir belə deyib: "Kremlin iddiasına görə, Zəngəzurda mövcud olmuş dəmir yolu şəbəkəsi onlara məxsusdur. Bu isə həqiqətdən uzaq bir yanaşmadır. Çünki dəhlizin Mehri hissəsi Azərbaycana məxsusdur. Ermənistanın bu ərazini kimə verməsi qeyri-qanunidir. Rusiya deyir ki, "bölgədə təhlükəsizliyi təmin edən onun əsgəridir". Çünki Ermənistanın Türkiyə və İranla olan sərhədini rus əsgəri qoruyur. Belə bir iddia irəli sürülür ki, Zəngəzur dəhlizində (Tramp marşrutu) təhlükəsizliyi rus əsgərləri təmin edəcək. Ona görə də bu məsələlər ABŞ və Ermənistana aiddir. İndiki halda Kremlin bu məsələləri ortaya atması onunla bağlıdır ki, ABŞ dəhliz məsələsində onlarla da danışıqlar aparsın və s. Sözsüz ki, rəsmi Bakının bu məsələdə ciddi arqumentləri var. Bu ilk növbədə Zəngəzurdan keçən dəmir yolu xəttinin Azərbaycan dövlətinin balansında olması ilə bağlıdır. Almatı razılaşmasının əlavələrinə uyğun olaraq bu cür mülklər Azərbaycana aid formada saxlanılmalı idi".

**Bəs hüquqi cəhətdən Zəngəzur dəhlizinin keçidi və dəmir yolu şəbəkəsinin Azərbaycana aid olması ilə bağlı hansı addımlar atıla bilər? T.Zülfüqarovun cavabı:** "Zəngəzur dəhlizinin (Tramp marşrutu) keçəcəyi və avqustun 8-də əldə edilən razılaşma bir layihədir. Burada iştirakçıların sayı ilə bağlı yanaşmalar var. Ola bilsin desinlər ki, "biz burada tunel tikəcəyik" və s. Amma bu yolun keçdiyi ərazi anlayışı var. Bu baxımdan Azərbaycanın tarixi kontekstdə arqumentləri böyükdür. Əgər Rusiya əsassız arqumentləri ortaya çıxarırsa, buna qarşı da faktlar ortaya qoyula bilər. Bunun üçün əsaslar var. Çünki keçmiş Qarabağ münaqişəsi də məhz Zəngəzurdan başlayıb ki, vaxtilə oradan Naxçıvana gedən qatarlara ermənilər təxribat edir, daş atırdılar, yolu bağlayırdılar. Orada keçən dəmir yolu şəbəkəsinin işçiləri Azərbaycan dövlətindən maaş alırdılar. Sonrakı prosesdə Nüvədi kəndinin əhalisinin zorla deportasiya edilməsi məsələsi də həmin ssenarinin tərkib hissəsi idi. Beləliklə, işğal nəticəsində Azərbaycanın mülkiyyətində olan Zəngəzur dəmir yolu da Ermənistanın nəzarətinə keçib".

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

# Putin Azərbaycanın olduğu 5+1 formatına qoşulmaq istəyir

## Kremlin əsl niyyəti - regionda istənilən platformanı Moskva təhlükə kimi qəbul edir

**Rusiya Mərkəzi Asiya və Azərbaycan dövlət başçıları arasında məşvərətçi görüşlər formatına qoşulmağı nəzərdən keçirməyi məqsədəuyğun hesab edir. TASS xəbər verir ki, bu sözləri Rusiyanın Tacikistandakı səfirliyinin birinci katibi Aleksey Zenko deyib.**

Düşənbədə çıxış edən rusiyalı diplomat bəyan edib ki, Moskva "Mərkəzi Asiya beşliyi"nin formalaşmasını və Azərbaycanın bu görüşlərə daxil edilməsi qərarını "böyük maraqla izləyir". O, formata qoşulmağın arqumentləri kimi Rusiyanın regiona "coğrafi və tarixi yaxınlığını", iqtisadi və nəqliyyat əlaqələrini göstərib.

Zenkonun fikrincə, Rusiyanın cəlb edilməsi guya "koordinasiyanı gücləndirəcək", "inteqrasiyanı təşviq edəcək" və "daha əhatəli təhlükəsizlik arxitekturası" yaradacaq, eyni zamanda formal olaraq region ölkələrinin müstəqilliyini qoruyacaq. Aydındır ki, Moskva bu formata qoşulmaqla buradakı ölkələri nəzarətdə saxlamaq niyyəti güdür. Bəs bu plana liderlər nə deyəcək?

**Milli Məclisin deputatı Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın Mərkəzi Asiya və Azərbaycan dövlət başçıları arasında məşvərətçi görüşlər formatına qoşulmaq niyyəti ilə bağlı fikirlər Moskvanın bu təşəbbüsə təsadüfi maraq göstərmədiyini, əksinə, prosesi diqqətlə izlədiyini və ona inteqrasiya olunmaq üçün zəmin, yaxud bəhanə axtardığını nümayiş etdirir: "Zenkonun arqumentləri Kremlin klassik ritorikasını xatırladır: "coğrafi və tarixi yaxınlıq", "iqtisadi və nəqliyyat əlaqələri", "təhlükəsizlik və koordinasiya". Bu tezislər postsovet məkanında Rusiyanın demək olar ki, bütün inteqrasiya təşəbbüslərində istifadə etdiyi ideoloji çərçivənin tərkib hissəsidir. Lakin sual ondan ibarətdir ki, bu arqumentlər region ölkələrinin real maraqlarına nə dərəcədə cavab verir? Mərkəzi Asiya dövlət başçılarının son illərdə xarici güclərdən kənar, öz aralarında məsləhətçi mexanizmlər yaratmaq cəhdi təsadüfi deyil. Bu formatın əsas üstünlüyü region ölkələrinin suveren qərarvermə imkanlarının qorunması, daxili problemləri üçüncü tərəflərin diktəsi olmadan müzakirə etmək istəkləridir. Məhz bu məqam Moskvanı narahat edir. Çünki Rusiya postsovet məkanında formalaşan istənilən müstəqil platformanı öz təsir imkanlarının zəifləməsi kimi qiymətləndirir. Bu baxımdan, Kremlin "formatı gücləndirmək" adı altında ona qoşulmaq istəyi əslində nəzarət mexanizmini ələ almaq cəhdidir. Aleksey Zenkonun "daha əhatəli təhlükəsizlik arxitekturası" ilə bağlı fikirləri isə xüsusilə diqqət çəkir. Rusiya uzun illərdir region ölkələri üçün guya "təhlükəsizlik zəmanətçisi" rolunda çıxış etməyə çalışır. Lakin Ukrayna müharibəsi, KTMT-nin faktiki səmərəsizliyi və Rusiyanın özünün real təhlükə olması bu iddiaların əsasının olmadığını göstərib. Eyni zamanda Rusiyanın "müstəqillik qorunacaq" kimi verdiyi təminatlar da regionda skeptik qarşılanır. Tarix göstərir ki, Moskva inteqrasiya etdiyi formatlarda bərabərhüquqlu tərəfdaşlıqdan daha çox asılılıq modeli qurmağa üstünlük verir.

Bəs Mərkəzi Asiya ölkələri və Azərbaycan bu təşəbbüsə necə reaksiya verəcək? Mövcud geosiyasi reallıqlar fonunda region liderlərinin ehtiyatlı davranacağı gözlənilər. Onlar bir tərəfdən Rusiya ilə münasibətləri kəskinləşdirmək istəmir, digər tərəfdən isə yenicə formalaşan müstəqil dialoq platformasının Moskvanın təsiri altına düşməsinə razı olmayacaqlar. Azərbaycan üçün isə məsələ daha prinsipial xarakter daşıyır. Bakı son illərdə balanslı və çoxşaxəli xarici siyasət kursu yürüdərək heç bir blokun və ya formatın alətinə çevrilməməyə xüsusi önəm verir. Bu baxımdan, Rusiyanın təklif etdiyi iştirak modeli Azərbaycanın milli maraqları ilə üst-üstə düşmür. Beləliklə, Moskvanın məşvərətçi görüşlər formatına qoşulmaq təşəbbüsü regionda "yeni inteqrasiya" cəhdi kimi təqdim olunsa da, mahiyyət etibarilə köhnə təsir ssenarisinin davamıdır. Mərkəzi Asiya ölkələri və Azərbaycan üçün əsas çağırış bu cür təşəbbüsləri diqqətlə ölçüb-biçmək, formal vədlərlə real riskləri bir-birindən ayırmaqdır. Görünən odur ki, region liderləri bu dəfə Kreml ritorikasına əvvəlki illərlə müqayisədə daha tənqidi və rasional yanaşacaqlar".



**Politoloq Çingiz Şahbazi bu təşkilatın Rusiyasız özünü qorumasının vacibliyini vurğuladı:** "Əgər Rusiya Prezidenti Vladimir Putin tərəfindən belə bir təşəbbüs reallaşarsa, heç şübhəsiz ki, bu təşəbbüs Putinin ağlına Rusiyanın regional təsirini itirməmək instinktindən meydana gəlib. Əlbəttə, Mərkəzi Asiyanın müstəqil diplomatiyası və xüsusilə də Azərbaycanın regionda yüksələn rolu Putini bu istiqamətdə düşündürür və o, nəhayət, hərəkətə keçməyə cəhd göstərmək istəyir. Bu səbəbdən Rusiyanın Tacikistandakı səfirliyinin birinci katibinin dili ilə təşkilata üzv ölkələrin liderlərinin nəbzini yoxlamaq qərarına gəlib desək yanılmarıq. Hesab edirəm ki, Dövlət Başçılarının Məşvərət Görüşü formatında təmsil olunan liderlər Putinin bu təşəbbüsü ilə bağlı yekdillik sərgiləməyəcəklər. Rusiyanın təşkilata tamhüquqlu üzv ölkə olaraq, dominant iştirakına razılıq verilməyəcək. Zatən formatın əsas qayəsi Rusiyasız müzakirə mühiti yaratmaq məqsədi daşıyır. Bundan başqa, Putinin özünü ora yerləşdirmək məqsədi hər kəsə aydındır və bu, Mərkəzi Asiyanın müstəqil diplomatiyasına maneə törətməklə, onları nəzarətdə saxlamaq imkanı əldə etməkdir. Bu baxımdan Rusiyanın iştirakı variantı üzərində dayanmaq daha məntiqlidir. Rusiya məhdud iştirakçı olaraq təşkilata daxil ola bilər. Bu, müşahidəçi və yaxud da xüsusi qonaq qismində iştirak etmək hüququdur. Aydındır ki, burada qərarvermə mexanizmlərinə daxil olmaq məhdudiyyəti var. Əlbəttə, Mərkəzi Asya ölkələrinin liderləri Rusiyanın təzyiqləri qarşısında dözüm göstərə bilməsələr, bu zaman Rusiyanın istəyinə nail olmaq ehtimalı da istisna deyil. Bu, hesab edirəm ki, rədd cavabı qədər çox zəif ehtimaldır. Azərbaycan açıq şəkildə Rusiyanı rədd etməz, amma formatın mahiyyətinin dəyişməsinə səbəb olacaq hər hansı bir qərara da öz etirazını bildirə bilər. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kriteriyalarında bərabərlik və suverenlik prinsipləri əsas planda yer alır və bu kriteriyalar hər zaman qorunub saxlanılır. Bütün bunlar isə Rusiyanın formata tamhüquqlu üzv olmaq üçün şansını azaldır. Əslində Rusiyanın üzv olduğu bütün təşkilatlarda dominant davranış verdişləri və bu istiqamətdə təcrübəsi məlumdur. Bu səbəbdən Rusiyanın iştirakı formatın müstəqilliyinə öz təsirini göstərəcək və bərabərlik balansı pozulacaq. Bu baxımdan postsovet məkanında Rusiyasız platforma olaraq, bu format öz müstəqilliyini qoruyub saxlamalı və inkişaf etməlidir".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**




# İsrail nəşrindən sensasion Azərbaycan iddiası

## "Haaretz": "Bakı yaxın gələcəkdə "İbrahim sazişləri"nə qoşulmağa hazır olmadığının siqnalını verib"

**Qətərin paytaxtı Dohada ABŞ Mərkəzi Komandanlığının dəstəyi ilə Qəzza zolağında beynəlxalq sabitləşdirmə qüvvələrinin yerləşdirilməsi mümkünlüyü ilə bağlı beynəlxalq konfrans keçirilib. Tədbirə 45-dən çox ölkədən nümayəndənin qatılacağı gözlənilirdi, lakin dəvət siyahısı tərtib olunarkən ciddi fikir ayrılıqları yaranıb.**

Musavat.com xəbər verir ki, Türkiyənin konfransda iştirakına İsrail əngəl törədib, rəsmi dəvət alan Azərbaycan isə nümayəndə göndərməmək qərarına gəlib. Haqqın.az İsrailin "Haaretz" qəzetinə istinadla yazır ki, ABŞ İsrailin vetosunu nəzərə alaraq Ankaraya dəvət göndərməyib. Qəzetin mənbələrinə görə, Türkiyənin iştirak etməməsi prosedur deyil, sırf siyasi xarakter daşıyır. Nəşrin məlumatına görə, adı açıqlanmayan Qərb diplomatı və Türkiyə hökumətinə yaxın ərəb mənbəsi Ankaranın Vaşinqton və Doha ilə sıx əlaqələri olmasına baxmayaraq, iştirakçılar siyahısına daxil edilmədiyini təsdiqləyib.

"Haaretz" Türkiyənin oktyabrda Şarm əl-Şeyx sülh sammitinə dəvət edildiyini və Qəzza zolağı ilə bağlı beynəlxalq təşəbbüsləri açıq şəkildə dəstəklədiyini vurğulayıb. Onun sözlərinə görə, Ankaranın Doha görüşündə iştirakına qarşı çıxan yeganə ölkə İsrail olub. Beynəlxalq sabitləşdirmə qüvvələrinin yerləşdirilməsi prezident Trampın Qəzza sülh planının ikinci mərhələsinin əsas elementi hesab olunur. İsrail də öz növbəsində, xüsusilə Qəzza müharibəsi başlayandan bəri ikitərəfli münasibətlərin kəskin şəkildə pisləşməsini nəzərə alaraq, Türkiyənin anklavda müharibədən sonrakı nizamlanmada iştirakına qarşı olduğunu dəfələrlə bəyan edib.

"Haaretz"in əldə etdiyi siyahıya əsasən, Doha görüşünə Misir, İordaniya, Azərbaycan, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və İtaliya ilə yanaşı, Avropa, Asiya və Asiya-Sakit Okean hövzəsinin dövlətləri dəvət olunub. BMT-yə üzv olmayan Kosovo Respublikası da siyahıya daxil edilib. Qəzet qeyd edir ki, Azərbaycan dəvət olunsa da, rəsmi Bakı Qəzza zolağına sülhməramlı kontingent göndərmək barədə düşünmədiyi üçün Dohaya nümayəndə heyəti göndərməyib.

"Haaretz" yazır ki, ABŞ ilə bəzi məsləhətləşmələrə baxmayaraq, Azərbaycan yaxın gələcəkdə "İbrahim sazişləri"nə qoşulmağa hazır olmadığının siqnalını verib.

Qəzet vurğulayır ki, "İsraillə çoxdankı yaxın münasibətlərinə baxmayaraq, Azərbaycan bu sazişə yalnız təbliğat məqsədilə qoşulmağa ehtiyac görmür".

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025



# Kanalizasiya üzərində uçarkən

Zamin HACI
zaminhaci@gmail.com

## (Ken Kiziyə nəzirə)

**Payız isti keçirdi, xalq narahat olmuşdu ki, yağış yağmır, təbiətdə balans pozulur, hətta Xəzər quruya bilər. Xəzərin quruması isə orada süni adalar qurmaq planlarımızı əngəlləyəcəkdi. Nəticədə nəticələrimiz yaxşı yaşamaqdan məhrum olardılar.**

Allaha şükür, uca yaradan uca xalqın dualarını eşitdi, son vaxtlar göydən bir neçə vedrə su töküldü. Ancaq yağış başqa problemləri qabartdı. Həmişəki kimi. Bu dəfə Bakıda bir neçə binanın altı çökdü. Xəbərlərdə bizə məlumat böylə çatdırıldı ki, bunun günahı əlaqədar orqanlarda deyildir, camaat özü səhvə yol vermiş, evlərini kanalizasiya kollektor və xətləri üzərində ucaltmışlar: "Yenə də biz xalqı yiyəsiz qoya bilmərik, icra hakimiyyətində qəmissiyə yaradılmışdır, hazırda orada güclü iclas gedir, çıxışlar yağışlar kimi ara vermir, çalışmaq lazımdır ən azı iclas müddətində uşaq-muşaqlar kanalizasiya çuxuruna düşüb boğulmasınlar". Sitatın sonu.

Hətta mən internetdə bir fotoşəkil gördüm, yaranmış qara dəliyin ətrafına Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) əməkdaşları keçilməz zolaqlı lent çəkib "Giriş qadağandır!" lövhəsi asmışdılar. Şüarın yanında isə bir nəfər suda boğulan şəxs simvolu həkk edilmişdi.

Bunlar hamısı çox gözəldir. Lap saqqız çeynəməkdən qarnı ağrıyan uşaqların məktəbdən evə buraxılmağı haqqında müsbət enerjili xəbər kimi. Ancaq paytaxt şəhərində kanalizasiya kollektorunun üzərində ev tikməyə kim yaşıl işıq yandırıb, bunu niyə araşdıran olmur?

Axı zarafat deyil, o boyda binalar tikilib, hamısının mülk kağızı - çıxarışı da var imiş. (Mən bir dəfə bu temaya toxunmuşam, indi ana dili müzakirələri qızışdığı üçün yenidən qayıdıram: nəhayət, bu mülk kağızının "çıxarış" adı dəyişdirilməlidir. Niyə camaatın it zülümü ilə pul yığıb aldığı evin hüquqi kağızı "çıxarış" adlanmalıdır? Niyə camaat daim oradan çıxarılmaq qorxusu altında saxlanılır? Çıxarış, yox bir, "basbayıra" sənədi...) Mülk kağızını əldə etmək üçün insanlar yetmiş yeddi idarədən keçirlər. Hər şeyin qanuniliyini yoxlamaq səlahiyyəti, imkanları bizdə yalnız dövlətə məxsusdur - özəl detektiv fəaliyyəti qadağandır. İndiki halda isə, belə çıxır, istənilən binadan, ərazidən mülk kağızı olan evi almaq da riskli və təhlükəlidir. Nə bilərsən altında nə var? Bəlkə nüvə tullantıları poliqonunun üstündə tikib sənə satırlar?

İstənilən başqa sferada oxşar vəziyyətdir. Məsələn, hansısa mənzili alanda dövlət idarələri sənədlər toplatdırır, sən də arxayın pulu sayıb verirsən, ancaq alverdən 7 il keçəndən sonra bir gün məlum olur ki, bu mənzildə evin əvvəlki yiyəsinin yeddi arxa dönəni "propiskada" qalmaqdadır. Nəyə görə? Bunu yoxlamalı, aradan qaldırmalı olan dövlət qurumları niyə rüsumları həzmi-rabedən rahat-hulqum kimi keçirirlər? Haram-xoşları olsun desək, haqqımız çatmırmı?

Bu cızmaqaranı elədəyim anlarda Müşfiqabaddan bir xəbər oxudum. Camaat ağlaşma qurmuşdu ki, qış girib, ancaq bizim istilik verilmir. Ən targikomiyi isə qaz idarəsinin cavabı idi: "Müşfiqabad Qaz Paylayıcı Stansiyasından (QPS) "Azəristiliktəchizat" ASC-yə məxsus 246 və 247 saylı qazanxanalara gedən 108 mm diametrli, uzunluğu 1000 metrə yaxın qaz xətti naməlum şəxs və ya şəxslər tərəfindən kəsilərək oğurlanıb. "Azəristiliktəchizat" ASC hüquq-mühafizə orqanlarına müraciət ünvanlayıb. Oğurluq faktında əli olan vətəndaşların axtarışı ilə bağlı cinayət işi açılıb. Tapılıb dəymiş ziyanın ödənilməsi istiqamətində addımlar atılır". Sitatın sonu.

Təsəvvür eləyin, kimsə 1 kilometr qaz xəttini əkişdirib, lakin bunu görən olmayıb. Eyni zamanda cinayətkarlar tutulana, məhkəmə bitənəcən Müşfiqabad sakinləri Mikayıl Müşfiqin şeirlərini oxuyub qızışmalıdır.

Məsələn, "Yenə o bağ olaydı" şeiri babat istilik verir. Məndən məsləhət...

# Kremlin "İrəvan qapısı" bağlanmaq ərəfəsində

## Overçukun qəfil səfəri Ermənistanın Avropa İttifaqı ilə imzaladığı strateji sənəddən dərhal sonraya təsadüf edir - Paşinyan üçün seçim anı...

**Rusiya baş nazirinin müavini Aleksey Overçukun qəfil Ermənistana getməsi xəbəri diqqət çəkir. Təsadüfi deyil ki, son iki həftədə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Brüsselə ardıcıl səfərlər edib.**




Dekabrın 2-də Brüsseldə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd imzalanıb. Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəd Rusiyanın bu ölkədə təsirlərin azaldılması üçün maddi yardımları da nəzərdə tutur. Xüsusilə gələn il keçiriləcək kritik parlament seçkilərinə Rusiyanın müdaxilə edəcəyi bəyan edilib və Moskvaya qarşı planlar müəyyən edilib.

Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaja Kallas Ararat Mirzoyanla birgə mətbuat konfransında deyib ki, Ermənistana sülh və möhkəmliyin yaradılması üçün 15 milyon avro ayrılacaq. "Rusiya və onun müvəkkilləri Ermənistanda seçkilər ərəfəsində informasiya kampaniyaları aparır. Xarici müdaxiləyə müqavimət göstərmək bütün cəmiyyətin iştirakını tələb edir. Fəal vətəndaş cəmiyyəti və müstəqil media çox vacibdir. Siz bu çətinliklərlə üzləşməkdə tək deyilsiniz; biz sizə fəal dəstək verməyə hazırıq", - Kallas əlavə edib.

Daha mühümü - Kaya Kallas Ermənistanı Avropa Birliyinin Rusiyaya qarşı sanksiyalarına qoşulmağa çağırıb. "Dünya nizamı dəyişir və strateji mövqelərin AB-nin ortaq xarici siyasəti ilə uyğunlaşdırılması tərəfdaşlarımız, o cümlədən Ermənistan üçün çox vacibdir. Ermənistanın xarici siyasətinin AB qərarları ilə uyğunlaşma səviyyəsi hazırda 37%-dir. Rusiyaya qarşı tətbiq etdiyimiz sanksiyalar AB üçün sərtdir, lakin buna baxmayaraq, tərəfdaşlarımızdan da bunu istəyirik", - deyə o bildirib.

Bu həftə isə yenidən Aİ-nin tədbirə dəvət olunan Mirzoyan Avropa Birliyi və quruma üzv dövlətlərin Ermənistanda akkreditə olunmuş diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüş keçirib. Mirzoyan Ermənistan-AB münasibətlərində son inkişaflara toxunaraq bildirib ki, təxminən 10 gün əvvəl Brüsseldə Ermənistan-AB tərəfdaşlığının yeni strateji gündəliyi qəbul olunub. Onun sözlərinə görə, bu sənəd ikitərəfli münasibətlərdə əldə edilmiş nailiyyətləri təsbit etməklə yanaşı, gələcəkdə əməkdaşlığın daha da dərinləşdiriləcəyi əsas istiqamətləri müəyyənləşdirir.

Aleksey Overçuk Ermənistanla iqtisadi əlaqələri kurasiya edən məmurdur. Məhz "Ermənistan Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim etməlidir" xəbərdarlığı da Overçuk edib. Onun sözlərinə görə, iki inteqrasiya ittifaqında iştirakı mümkün deyil. "Biz dəfələrlə vurğulamışıq ki, Avropa İttifaqına üzvlük Avrasiya İqtisadi İttifaqı ilə uyğun gəlmir. Müəyyən bir mərhələdə Ermənistan xalqı seçim etməlidir. Amma bu seçim məhz Ermənistan xalqının seçimi olacaq", - deyə o bildirib.

İrəvanın isə Aİ ilə yaxınlaşmaya dair imzaladığı sənədin ardınca Overçukun Ermənistana getməsi məhz bu dilemmanı yenidən xatırlatmaq məqsədi daşıya bilər. Yeni Ermənistan strateji seçimini etməlidir - ya Avropa İttifaqı, ya da Avrasiya...

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyul aylarında Ermənistandan AİI-yə ixrac 1 milyard 788 milyon ABŞ dolları təşkil edib. Bu da 2024-cü ilin müvafiq göstəricisindən 42 milyon ABŞ dolları və ya 2,4% çoxdur. Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi isə 12 milyarddır. Bu baxımdan, həmin dövriyyədən imtina etmək Ermənistan üçün asan deyil. Bu ölkənin hələ də Rusiyadan və AİI-dən iqtisadi asılılığı qalmaqdadır.

Bəs Paşinyan Ermənistanı seçim qarşısında hansı manevri edə bilər?

**ReAl Partiyasının sədri, iqtisadçı Natiq Cəfərlinin "Yeni Müsavat"a bildirdiyinə görə, seçim o vaxt olar ki, Ermənistan Avropa Birliyinə üzvlüyün bir addımlığında olsun**: "Düşünmürəm ki, Ermənistan bu inteqrasiyanın o dərəcədə yaxınlığındadır. Buna illər lazımdır və çox uzaq görünən prosesdir. Təkcə coğrafi mövqeyinə görə Ermənistanın Avropa Birliyinə üzvlüyü mümkün görünmür, çünki dənizə çıxışı belə yoxdur. Yəni siyasi tərəflərini bir kənara qoyuram". **Onun fikrincə, Ermənistan üçün bunun yolu Türkiyə və Gürcüstandan keçir:** "Gərək bu ölkələrdən biri Avropa Birliyinə üzv olsun ki, dənizə çıxışı olan həmin dövlətlərin vasitəsi ilə inteqrasiya etsin. İndiki halda Ermənistanın Avropa Birliyi ilə sıx əlaqələri olacaq, böyük layihələr həyata keçiriləcək, Ermənistan mallarının daha rahat rejimlə Avropa bazarına çıxarılması, vizasız gediş-gəliş kimi üstünlüklər mümkündür. Amma Ermənistan Rusiya və MDB ölkələrindən o dərəcədə asılıdır ki, bunu tezliklə aradan qaldırmaq olmaz. Məsələ budur ki, bu rəqəmləri Avropa Birliyi Ermənistana verə bilməz. Ona görə də Ermənistan Avrasiya İttifaqında işini davam etdirəcək. Çünki kifayət qədər dividentlər var. Məsələn, Rusiyada erməni nömrəsi olan maşınlar çoxalıb. Bunun da səbəbi Avropa maşınlarının Ermənistana girib, sonra erməni nömrəsi ilə Rusiyada rahat gəzməyə imkanı olmasıdır. Həmçinin qızıl-brilyant bazarında ciddi gəlirlər götürülür. O baxımdan Ermənistan Avrasiya İqtisadi Birliyində fəaliyyətinə son qoymayacaq. Ola bilsin ki. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə bağlı addım atsın. Ermənistan xeyli zamandır ki, bu təşkilatda işini dayandırıb və narazılıq edir".

Xatırladaq ki, Avrasiya İqtisadi Birliyi 29 may 2014-cü ildə Belarus, Qazaxıstan və Rusiya tərəfindən imzalanmış müqavilə ilə qurulan siyasi və iqtisadi təşkilatdır. Ermənistanı da Avrasiya İqtisadi Birliyinə daxil edən müqavilə 9 oktyabr 2014-cü ildə imzalanıb. Birliyin fəaliyyəti rəsmi olaraq 1 yanvar 2015-ci ildə başlayıb. Müqavilənin sonuncu - 118-ci maddəsində deyilir ki, ittifaqdan çıxmaq üçün dövlət müraciət edə bilər və onun ittifaqdan çıxması müraciət etdiyi gündən başlayaraq 12 ay ərzində gerçəkləşir. Bu müddətdə həmin dövlət "Avrasiya İqtisadi İttifaqı haqqında müqavilə"dən irəli gələn bütün öhdəliklərini yerinə yetirib qurtarmalıdır.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

**“Respublika” partiyasının sədr müavini Armen Aşotyan Belarus Prezidenti Aleksandr Lukaşenkonun həbsdə olan müxalifət nümayəndələrini əfv edərək azadlığa buraxmasından sonra təxribatçı bəyanatla çıxış edib. Belarus rəhbərliyinin ABŞ Prezidenti Donald Trampın xahişi ilə 123 məhbusu azad etməsindən Azərbaycana qarşı düşmənçilik məqsədilə istifadə etməyə çalışıb.**

# Trampa qarşı “Bakıya siyahı göndər” şantajı

## ABŞ lideri mühakimə olunan erməni canilərin azad olunması üçün Azərbaycandan xahiş edərmi?; Bakıda mühakimə olunanların belaruslu məhbuslardan fərqi...

“Yeni Müsavat” qeyd edir ki, “Respublika” partiyasının sədri sabiq prezident Serj Sərkisyandır. Armen Aşotyan ABŞ prezidentinin xahişi ilə Azərbaycan ərazilərinin işğalında iştirak etmiş, kütləvi qətllər və digər ağır müharibə cinayətləri törətdiyinə görə Bakıda məhkəmə prosesi keçirilən erməni əsilli hərbi cinayətkarların azadlığa buraxılacağına inandığını bildirib.

Serj Sərkisyanın müavini hərbi cinayətkarları “məhbus” adlandırıb: “Donald Trampın xahişi ilə Belarus prezidenti siyasi məhbusları, o cümlədən uzunmüddətli həbs cəzasına məhkum edilmiş 123 nəfəri azadlığa buraxıb. Bu, bizi iki nəticəyə gətirib çıxarır. Birincisi, ABŞ Prezidentinə Bakı həbsxanalarından soydaşlarımızın azad edilməsi üçün aydın, məqsədyönlü və mərhəmətli xahiş təqdim edilsəydi, uğur qazanmaq ehtimalı yüksək olardı. İkincisi, əgər siyasi "məhbus"larımızın azad edilməsi məsələsi həm Ermənistan daxilində, həm də erməni-amerikan icması və digər diasporlar tərəfindən ABŞ prezidentinə müraciət səviyyəsinə qaldırılarsa, onda bəzi, natamam olsa da, nəticələr əldə etmək ehtimalı yüksəkdir.

Aşotyan ABŞ prezidentinə müraciətin qəbul olunması üçün 30 min nəfərlik mitinqin keçirilməsini təklif edib. Revanşist müxalifətin nümayəndəsi olan Aşotyan, göründüyü kimi, Azərbaycan xalqına qarşı müharibə cinayətləri, mülki əhaliyə qarşı soyqırım, etnik təmizləmə, qanunsuz silah gəzdirmə, terrorçuluq, dövlətin ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi ən ağır cinayətlər törətmiş şəxsləri bu əməllərin heç birinə yol verməmiş insanlarla eyniləşdirir.

Hətta Belarusda əfv edilən məhbuslardan biri Nobel Sülh mükafatı laureatı olduğu halda, Armen Aşotyanın lideri Serj Sərkisyan Azərbaycan ərazilərinin işğalı zamanı yol verdiyi cinayətlərə, eləcə də Xocalıda dinc əhaliyə, o cümlədən uşaqların, qadınların, qocaların qətlini təşkil etdiyinə görə hazırda axtarışdadır.



Prezident Trampın Bakıdakı hərbi cinayətkarların sərbəst buraxılmasına çağırış edəcəyi inandırıcı görünmür. Revanşistləri narahat edən tək bu deyil. Bəllidir ki, ABŞ Konqresinin üzvü Anna Paulina Luna “907-ci düzəliş”in tamamilə ləğv olunması məqsədilə qanun layihəsini Nümayəndələr Palatasına təqdim edib. Luna bu addımın ABŞ-nin regional siyasətdə daha çevik hərəkət etməsinə imkan yaradacağını qeyd edib. Onun sözlərinə görə, hazırkı məhdudiyyətlər mövcud reallıqlara uyğun deyil və tərəfdaşlıq əlaqələrinə əngəl törədir. Konqresmen həmçinin vurğulayıb ki, Azərbaycanın enerji təhlükəsizliyi, regional stabillik və antiterror sahəsində ABŞ üçün strateji tərəfdaş olması nəzərə alınaraq, “907-ci düzəliş”in saxlanması məqsədəuyğun deyil. Təbii ki, erməni lobbisi Trampın siyasətindən narazıdır. Ona görə hər imkanda Ağ Ev rəhbərinə hücumu fürsət bilir, onu hətta şantaj yolu ilə yola gətirməyə çalışırlar. Lukaşenkodan sonra “Bakıya da siyahı göndər” niyyətinin arxasında da bu şantaj niyyəti açıq görünür.

**Deputat Elşad Musayev** “Yeni Müsavat”a bildirdi ki, Ermənistanda müxalifət getdikcə reallıq hissini itirir və ən absurd təşəbbüslər irəli sürür. Tramp üçün prioritetlərin Venesuela və Ukrayna olduğunu qeyd edən deputatın sözlərinə görə, Ağ Ev liderindən Bakıda mühakiməsi davam edən erməni hərbi canilər üçün hər hansı müraciət gözləmir: “Sərkisyanın müavini nə qədər axmaq olduğunu nümayiş etdirib. Bu erməni anlamır ki, Tramp Azərbaycana və onun Prezidentinə necə yüksək dəyər verir. ABŞ kimi fövqəlgüc dövlətin lideri əsla belə lokal məsələ üçün ağız açmaz”.

**E.Musayev, üstəlik, bu adamların siyasi fəaliyyətə görə həbs olunmadığını yada saldı:** “İlk növbədə, respublikaçılar ölkələrin daxili siyasətinə qarışmır. Erməni məhkumların həbsi Azərbaycanın ərazisində törədilmiş cinayətlərin nəticəsidir. Yəni Belarusdakı məhbuslarla bir cərgəyə qoyula bilməz. Çünki beynəlxalq hüquq müdafiə təşkilatları arasında bəziləri istisna, nüfuzlu təsisatlar erməni caniləri belaruslu dustaqlarla tay tutmayıb. Ona görə də Sərkisyanın müavini sayıqlayıb. Əslində onun lideri Xocalı canisi olaraq hazırda Bakıda həbsdə olmalı idi”.

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev isə qeyd etdi ki, məsələyə fərqli yanaşır:** “Ermənistanda narazı qüvvələr bu proseslərdən xal qazanmağa çalışır. Onlar yaxşı bilir ki, Tramp belə bir təşəbbüs irəli sürməyəcək. Ancaq məsələni gündəmdə saxlamağa, təbliğat kampaniyası qurmağa çalışırlar. Yəni onların yeganə məqsədi hər bir yolla "qara piar" qurmaqdır. Biz buna nəinki hazır olmalı, müqavimət göstərməli, beynəlxalq təşkilatlara, Dövlət Departamentinə, Konqresə müraciət etməliyik. Ermənilərin yalanlarını ifşa etməliyik".

**Partiya funksioneri bu təbliğatın nəticəsini gözləmir:** “Tramp Azərbaycan prezidentini güclü lider adlandırdı. Dedi ki, onun dostudur. Həmçinin sülh prosesinə dəstək verib və reallıq bəllidir. Ona görə erməni separatçı-terrorçu ünsürlər üçün heç vaxt müraciət etməz”.

**MCP funksioneri Sərkisyanın boş xəyallarla yaşadığını dedi:** “Belarusda azad olunan şəxslər hərbi cinayət törətməyiblər. Onlar mərkəzi hökumətə qarşı silahlı birləşmələr yaradaraq separatçı rejim qurmayıblar. Araik və ortaqları isə Azərbaycana tabe olmayacaqlarını deyərək Qarabağın yuxarı hissəsində qondarma hakimiyyət yaratmışdılar. Onların kukla prezidentləri, oyuncaq qurumları var idi. Yəni Belarusdakı siyasi məhbuslarla Bakıdakılar arasında yerlə göy qədər fərq var. Ancaq o da deyilməlidir ki, Paşinyan bu məsələni Bakı ilə müzakirə etdiklərini təsdiqləyib. Yəni ümid edirlər ki, sülh müqaviləsindən sonra onlar İrəvana ekstradisiya oluna bilər”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## ABŞ prezidentinin xalqa müraciətinin şifrələri

**ABŞ Prezidenti Donald Tramp xalqa müraciətində iqtisadi sahədə əldə etdiyi nailiyyətləri sadalamaqla kifayətlənib: o, nə Ukraynadakı, nə də Veneseula ətrafındakı vəziyyətə toxunmayıb, yalnız Qəzzada sülhün əldə olunduğunu qeyd edib.**

Musavat.com xəbər verir ki, o, çıxışına Co Baydenin prezidentlik dövrünü tənqid etməklə başlayıb, hakimiyyətə ikinci gəlişindən bəri ABŞ iqtisadiyyatının çiçəkləndiyini söyləməklə bitirib. Onun sözlərinə görə, prezidentliyi dövründə qiymətlərin endirilməsində əhəmiyyətli irəliləyişlər əldə edilib: “11 ay əvvəl bir qarışıqlığı miras aldım və onu təmizləyirəm. Vəzifəyə başlayanda inflyasiya son 48 ildə ən yüksək idi, bəziləri deyərdi ki, ölkəmizin tarixində ən yüksək idi, onlar qiymətləri əvvəlkindən daha yüksək səviyyəyə qaldırdılar və milyonlarla amerikalı üçün həyatı əlçatmaz etdilər”.

Amerika lideri cəmi bir neçə ay ərzində “pisdən yaxşıya doğru getdiyini” bəyan edib: inflyasiya dayandırılıb, əməkhaqqı artıb və qiymətlər düşüb: “Bizim rəhbərliyimiz altında qiymətlər sürətlə düşür”.

Xüsusilə o, Şükran günü hinduşkanın qiymətinin keçən illə müqayisədə 33 faiz, yumurtanın qiymətinin isə mart ayından bəri 82 faiz düşdüyünü açıqlayıb.

Tramp ölkə üzrə benzinin orta qiymətinin qallon üçün 2,50 dollar olduğunu bildirib.

ABŞ prezidenti növbəti 12 ay ərzində ABŞ-də 1600 yeni elektrik stansiyasının açılacağını vəd edib ki, bu da onun sözlərinə görə, “demokratik inflyasiya fəlakəti” adlandırdığı vəziyyəti əksinə dəyişəcək.

Tramp iqtisadiyyatın artıq xilas edildiyini və yalnız yaxşılaşacağını qeyd edib: “Ölkəmiz çökməyə, tam çökməyə hazır idi. Biz indi dünyanın ən qaynar ölkəsiyik”.

Eyni zamanda ABŞ prezidenti administrasiyasının uğurlarının böyük hissəsini tarif siyasəti ilə əlaqələndirib: “Bu uğurun böyük hissəsi tariflər vasitəsilə əldə edilib - mənim ən sevdiyim söz olan "tariflər", onlar on illərdir digər ölkələr tərəfindən bizə qarşı uğurla istifadə olunur, lakin artıq istifadə edilmir”.

O əlavə edib ki, ölkəyə 18 trilyon dollarlıq investisiya cəlb etməyi bacarıb: “Biz irəliləyiş əldə edirik”.

Analitiklərə görə, Trampın xalqa müraciəti onun əhali arasında nüfuzunun sürətlə düşməsindən qaynaqlanan narahatlığın nəticəsidir. Son sorğular Trampa etimadın kəskin düşdüyünü göstərir və o, xalqa son müraciətində sırf iqtisadi məsələləri önə çəkməklə bu prosesdən ciddi narahatlıq keçirdiyini nümayiş etdirir.

# Həmin tələbələr ali məktəbdən qovulacaqlar

## Fırıldaqda təqsirləndirilən Gündüz Abbasov və Kamran Əsədovun məhkəməsi bu gün davam etdiriləcək



**“Bu il keçirilən buraxılış və yaz qəbul imtahanlarında imtahan nəticələrinin emalı ilə bağlı xüsusi yoxlama alqoritmlərinə əsasən bəzi abituriyentlərin cavabları şübhə yaratdığı üçün Dövlət İmtahan Mərkəzi tərəfindən xüsusi araşdırma aparılıb. Nəticədə Gəncə şəhərində keçirilən növbəti qəbul imtahanında bəzi abituriyentlərin üzərində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş və istifadəsi müvafiq orqanlar tərəfindən xüsusi icazə əsasında yol verilə bilən texniki vasitələr aşkarlanıb”. Dövlət İmtahan Mərkəzinin (DİM) yaydığı məlumatda belə deyilir. DİM bildirib ki, 17 iyun 2025-ci il tarixində xüsusi yoxlama alqoritmlərinə əsasən nəticələri şübhə doğuran abituriyentlərin, həmçinin üzərlərində texniki vasitələr aşkarlanan abituriyentlərin siyahısı araşdırılması üçün hüquq-mühafizə orqanlarına təqdim olunub: “Bu işin təşkilatçıları və onların qurduqları şəbəkə ibtidai istintaqın gedişində ifşa olunub. Cinayət işinin materiallarından müəyyən olunur ki, bu iş üzrə kömək edilməsi nəzərdə tutulan abituriyent sayı 11 nəfərdir. Həmin abituriyentlər də şahid qismində ifadə vermiş və öz əməllərini ifadələrində etiraf ediblər. Xatırladaq ki, cinayət işi araşdırılarkən texniki cihazları yerləşdirmək üçün xüsusi ayaqqabıları hazırlayan pinəçi də istintaqa dəvət olunub və şahid qismində ifadə verib”.**




DİM bildirib ki, istintaqın gedişi zamanı hazırda təqsirləndirilən şəxslər Abbasov Gündüz Yaşar oğlu və Əsədov Kamran Alim oğlunun da əməlləri üzə çıxıb. İttiham aktına əsasən Gündüz Abbasov və Kamran Əsədov qadağan olunmuş texniki cihazlar vasitəsilə Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək imtahanlardan asanlıqla keçmələrinə kömək göstərilməsi üçün onlara müraciət etmiş müxtəlif şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaiti alıb aralarında bölüblər. Onlar müxtəlif yerlərdə abituriyentlərlə görüşərək texniki cihazlardan istifadə olunma qaydasını izah ediblər. Qeyd edək ki, bu cihazların yerləşdirilməsi üçün altı qalın idman tipli ayaqqabılardan istifadə olunub. Onların alt hissəsi xüsusi alətlə kəsilərək genişləndirilib. Beləliklə, kənardan baxılanda ayaqqabının altlığında kənar əşyaların olmasını girişdə müəyyən etmək mümkün olmayıb. Həmin abituriyentlər daha sonra sanitar qovşağa gediblər. Orada onlar qulaqlığı xüsusi çubuq vasitəsilə qulaqlarına, kameranı köynəyin düymə hissəsinə, ötürücü cihazı xüsusi yapışqan vasitəsilə çiyinlərinə, internetpaylaycı cihazı isə ayaqqabının daban hissəsinə yerləşdiriblər. Daha sonra sinif otağına qayıdıblar və imtahan başlayandan sonra üzərlərində olan kameranı kitabçaya tutmaqla




görüntünü qarşı tərəfə ötürüblər. Qarşı tərəf isə öz telefonunda olan xüsusi proqram vasitəsilə görüntüləri canlı şəkildə əldə edib. Cavablar isə üzərində “vip smart” sözləri yazılmış nazik plastik karta oxşayan və üzərində hər hansı düymə və s. olmayan telefona zəng etməklə bildirilib". Toplanmış sübutlara əsasən, təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilməklə Gündüz Abbasov barəsində məhkəmənin qərarı ilə həbs, Kamran Əsədov barəsində isə başqa yerə getməmək haqqında iltizam qətimkan tədbirləri seçilib. Məhkəmənin bu gün davam edəcəyi gözlənilir.

Bəs belə olan halda həmin tələbələrin aqibəti necə olacaq? Əgər ötən illərdə də belə hallar baş veribsə, artıq məzun olmuş şəxslərin diplomları ləğv olunacaqmı?

**Təhsil üzrə eksperti Etibar Əliyev Azxeber.com-a açıqlamasında deyib ki, qanunsuz əməllər törədən abituriyentlərin imtahan nəticələri ləğv olunur:** “Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli, 193 nömrəli qərarı ali məktəblərə tələbə qəbulu ilə bağlı məsələləri tənzimləyir. Həmin qərarda açıq şəkildə göstərilir ki, abituriyent imtahana kalkulyator, elektron cihazlar, köçürmə vərəqləri, cədvəllər və digər qadağan olunmuş vasitələrlə daxil olarsa, onun imtahan nəticələri şübhəsiz ləğv edilir. Bu proses çərçivəsində adıçəkilən abituriyentlərin nəticələri birbaşa ləğv olunacaq. Əgər həmin şəxslər artıq tələbə adı qazanıblarsa, universitetlərdən xaric ediləcəklər. Çünki onlar saxta yolla və dövlət qanunlarını pozaraq ali təhsil müəssisələrinə daxil olublar”.

**Ekspert vurğulayıb ki, sözügedən cinayət işi valideynlər üçün dərs olmalıdır:** “Bütün bu faktlar və əvvəllər də baş vermiş barışmaz və neqativ hallarla mübarizədə Dövlət İmtahan Mərkəzinin fəaliyyəti təqdirəlayiqdir. Eyni zamanda Dövlət Təhlükəsizliyi Xidmətinin bu prosesdə peşəkar fəaliyyəti xüsusi qeyd olunmalıdır. Hesab edirəm ki, bu proses valideynlər üçün də mühüm mesajdır. Onlar avantürist vədlərə inanaraq bu cür qanunsuz yollara qoşulmamalıdırlar. Əgər övladların biliyi zəifdirsə, valideynlər peşə təhsili müəssisələrinə üstünlük verməlidirlər. Peşə təhsilinə hazırda böyük tələbat var”.

❑ **“Yeni Müsavat”**

## Adı cinayət işində hallanan ekspert harada müəllimdir?

**Təhsil eksperti Kamran Əsədovun Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Nərimanov Rayon Komitəsinin sədri vəzifəsindən uzaqlaşdırıldığı ilə bağlı məlumatlar yayılıb. Qeyd olunur ki, K.Əsədov vəzifəsini 20 gün yerinə yetirdikdən sonra işdən qovulub.**

Modern.az-ın sorğusuna cavab olaraq, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqından bildirilib ki, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı (ETİHİ) Nərimanov Rayon Komitəsində 27 noyabr tarixində növbədənkənar seçki keçirilib. Seçkinin nəticələrinə ETİHİ Respublika Komitəsi Rəyasət Heyətində baxılıb və Kamran Əsədovun rəhbərliyi təsdiqlənməyib.

Qeyd edək ki, səsvermə qaydalarına əsasən ilk həmkarlar ittifaqı komitələrinin, həmkarlar ittifaqı rayon, şəhər hüquqlu komitələrin rəhbərləri (sədr və müavinlər) həmin komitələrin tərkibindən bilavasitə yığıncaq iştirakçıları, konfrans nümayəndələri tərəfindən və ya komitələrin iclaslarında seçilir, müvafiq olaraq yuxarı həmkarlar ittifaqı orqanının Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra səlahiyyətli sayılır.

Xatırladaq ki, dekabrın 12-də onun barəsində cinayət işi açıldığına dair məlumat yayıldı. Cinayət işinin ibtidai istintaqı artıq yekunlaşıb.

Belə ki, hazırda məhkəmə istintaqı davam edir. Kamran Əsədov tanışı Gündüz Abbasovla birlikdə 2025-ci ildə keçirilən qəbul və buraxılış imtahanlarında qanunsuz texniki vasitələrdən istifadə halları ilə bağlı ittiham olunur. Onlara Cinayət Məcəlləsinin 302.3-cü (gizli informasiya əldə etmək üçün nəzərdə tutulmuş texniki vasitələrin qanunsuz satılması və ya satış məqsədilə əldə edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham elan edilib.

## Məktəbi vaxtından əvvəl belə bitirmək olar

**Ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı təhsilalanlar üçün eksternat qaydasında imtahan keçirilib.**

İmtahanda ümumi təhsil müəssisələri tərəfindən müvafiq müşayiət məktubu ilə adları təqdim edilmiş 10 şagird biliklərini nümayiş etdirib.

İmtahan hər fəndən 10 sual olmaqla, fənn proqramlarına uyğun təşkil olunub. Nəticələr müvafiq komissiya tərəfindən 100 ballıq şkala üzrə qiymətləndiriləcək. Test imtahanından uğurla keçən istedadlı şagirdlər barədə məlumatlar Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə (MÜTDA) təqdim ediləcək. MÜTDA tərəfindən təşkil edilən müsabiqədən uğurla keçən şagirdlər müvafiq olaraq cari tədris ilinin ikinci yarım ilindən etibarən bir sinif yuxarı sinifdə təhsillərini davam etdirəcəklər.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş “Ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinin vaxtından əvvəl bitirilməsi Qaydaları”na əsasən, ümumi təhsil üzrə təhsil səviyyələrini vaxtından əvvəl bitirmə yalnız ibtidai təhsildə III, ümumi orta təhsildə VIII, tam orta təhsildə X sinif şagirdlərinə şamil olunur. Hər hansı bir şagird ümumi təhsil pilləsində oxuduğu müddətdə təhsil səviyyələrindən yalnız birini vaxtından əvvəl bitirə bilər.

# Vardanyanın məhkəmədə son ümidi də puç oldu

## 4 minə yaxın azərbaycanlının taleyinə biganə qalan "Qırmızı Xaç" niyə indi əl-ayağa düşüb?



**Cinayət Məcəlləsinin sülh və insanlığ əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb. Dekabrın 18-də prokuror Ruben Vardanyanın ömürlük azadlıqdan məhrum edilməsini istəyib.**

Son prosesdə Vardanyanın şahid qismində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nümayəndəsinin məhkəmədə iştirakının təmin edilərək dindirilməsi barədə vəsatəti müzakirə olunub. Müdafiə tərəfinin mövqeyinə görə, həmin təşkilatın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakı zəruridir. Belə ki, təqsirləndirilən şəxsin bildirdiyinə görə, ibtidai istintaq zamanı, eləcə də məhkəmə istintaqı dövründə müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri Ruben Vardanyanın müvəqqəti saxlanıldığı yerə gələrək, onunla görüşüblər. Onun ərzaqla və geyimlə təmin olunmasına, ailə üzvləri ilə əlaqə saxlanılmasına köməklik göstəriblər.

Vəkil bildirib ki, təqsirləndirilən şəxsin mövqeyinə əsasən, komitə nümayəndəsinin məhkəmədə iştirakının təmin olunmasında əsas məqsəd onun cinayət prosesində statusunun müəyyənləşdirilməsindən ibarətdir. Bu səbəbdən, BQXK-nın nümayəndəsinin məhkəmədə şahid qismində iştirakının təmin olunmasına köməklik göstərilməsini xahiş edir.

İttiham tərəfi isə hesab edib ki, Ruben Vardanyan özü təqsirləndirildiyi cinayət işi üzrə prosessual statusunu başa düşür.

Göstərilən halda hər hansı beynəlxalq təşkilatın nümayəndəsinin məhkəmədə verəcəyi ifadənin şəxsin statusunu necə dəqiqləşdirəcəyi və ya nəyi müəyyənləşdirəcəyi təbii ki, qeyri-müəyyən haldır. Digər tərəfdən, beynəlxalq təşkilatın nümayəndəsi məhkəmə prosesində hansısa şəxsin statusunu müəyyənləşdirmir. Qeyd olunanları nəzərə alaraq dövlət ittihamını müdafiə edən prokuror məhkəmədən vəsatətin təmin olunmamasını xahiş edib. Bundan sonra məhkəmə istintaqının yekunlaşması və çıxışlara başlamaq qərarı verilib.

Qeyd edək ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin İrəvan ofisinin qarşısında Ruben Vardanyanın və Qarabağda cinayət törətmiş digər şəxslərin azadlığa buraxılması tələbi ilə aksiyalar da keçirilib. Ermənilər məlum aksiyanı keçirməklə BQXK-nın cinayət törətmiş bu şəxslərin "hərbi əsir" elan olunması üçün təzyiq göstərməyə çalışırlar. Vardanyanın "Qırmızı Xaç" gedişi və statusunun müəyyənləşməsi haqda dediklərinin arxasında nələr dayanır?

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev "Yeni Müsavat"a açıqlamasında məhkəmənin tam doğru qərar verdiyini söylədi:** "Əvvəla, praktikada belə bir təcrübə yoxdur ki, hansısa beynəlxalq təşkilat məhkəmə prosesində ixtiyari şəxsin statusunu müəyyənləşdirsin. İkincisi, şahid qismində o şəxs dindirilir ki, həmin şəxsin şahid kimi funksionallığı və ya lap dəqiq desək, törədilən və istintaq edilən cinayətin gedişatı, baş verməsi ilə bağlı ümumi deyil, məhz birbaşa, açıq, detallı məlumatlı olsun. Nəhayət, üçüncüsü, Beynəlxalq Qırmızı Xaç Komitəsi nümayəndələrinin Ruben Vardanyanla bağlı istənilən ifadəsi nəyisə dəyişə bilməz. Çünki, onlar arasındakı münasibətlər Vardanyan həbs edildəndən sonra yaranıb və məlum münasibətlərdə Beynəlxalq Qırmızı Xaç Komitəsinin özünün statusu sadəcə müşahidəçi və vasitəçi (ailə üzvləri ilə kontaktın yaradılması və s) qismindədir. Ona görə düşünürəm, ittiham tərəfinin mövqeyi daha arqumentlidir və məhkəmənin istintaqı yekunlaşdıraraq çıxışlara başlamaq barədə verdiyi qərar tam düzgündür.

Eyni zamanda əlavə edim ki, bənzər hallarla, situasiyalarla, reaksiyalarla, tələblərlə hələ çox qarşılaşacayıq. Ya da belə deyək: hələ çoxları ortalığa çıxacaq və mövzuya öz "rəngi"ni qatmağa, arada isə hətta suyu bulandırmağa çalışacaqlar. Amma çıfayda! Çünki Azərbaycan məhkəmələrində bir tək Vardanyanın deyil, bütün təqsirləndirilən şəxslərin prosesi ədalətli keçirilir və heç bir kənar müdaxiləyə, təzyiqə, təsirə də yol verilmir. Qanunun aliliyi hər kəs üçün keçərlidir və kimin haqq etdiyi cəza nədirsə, yekunda onu da alacaq".

AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Beynəlxalq Qırmızı Xaç Komitəsinin bu davranışlarını beynəlxalq qanunvericiliyə birbaşa zidd hesab edir: "Adı bir çox maxinasiyalarda və çirkli pulların yuyulmasında hallanan Vardanyanı Kreml keçmiş Dağlıq Qarabağ separatçı rejimə xüsusi təlimat və tapşırıqlarla yollamışdı. Rusiya bu cinayətkarın vasitəsi ilə prosesləri daha da qızışdıraraq məkrli oyunlar qurmaq planlaşdırırdı. Lakin Azərbaycanın qətiyyəti və prinsipiallığı Moskvanın bu planlarını pozdu. Özünü separatçıların liderlərindən biri adlandıran Vardanyan isə həbs olunaraq Bakıya istintaq orqanlarına təhvil verildi. Onun törətdiyi sülh və insanlıq əleyhinə cinayətləri, müharibə cinayətlərini, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı cinayətləri təkzibolunmaz faktlar və dəlillərlə sübuta yetirilib. İstintaq çox yüksək səviyyədə peşəkarlıqla aparılıb. Həmin müddət ərzində də Azərbaycan və beynəlxalq qanunvericiliyin tələblərinə tam cavab verən davranış göstərilib. Halbuki bu qatı cinayətkar belə humanizmə layiq deyildi. Məhkəmə prosesində də sərbəst ifadələrini verir. Vardanyan və onun havadarları bu cinayətkarı layiq olduğu cəzadan yayındırmaq üçün hərəkətə keçiblər. Rusiyada və bəzi Qərb dairələrində Vardanyan da daxil olmaqla, cinayətkarları "hərbi əsir" kimi qələmə verməyə çalışlar. Halbuki mühakimə olunanların qatı cinayətkarlar olması mötəbər sübutlarla , şahid ifadələri ilə təsdiq olunur. Beynəlxalq Qırmızı Xaç Komitəsi də həmişəAzərbaycana qarşı qeyri-obyektivliyi ilə seçilib. Azərbaycanda fəaliyyət göstərdiyi 33 il ərzində bitərəfli olaraq Ermənistanın və Dağlıq Qarabağdakı separatçıların və terrorçuların tərəfini tutub. Hətta Azərbaycanın etirazlarına məhəl qoymayarq Xankəndidə ofis açmışdı və həmin ofis də İrəvandan idarə olunurdu. Komitənin vəzifəsi humanitar məsələlərlə bağlı olsa da, bir çox hallarda siyasi proseslərə də müdaxilə edir. Ona görə də Azərbaycanda Beynəlxalq Qırmızı Xaç Komitəsinin də fəaliyyətinin dayandırılması labüdləşdi. Komitənin də məqsəd və vəzifələrində istintaq, məhkəmə orqanlarına müdaxilə etmək, status dəyişmək kimi səlahiyyətlər yoxdur. İşlərini görüb Vardanyanın müvəqqəti saxlanıldığı yerə gələrək, onunla görüşüblər, ərzaqla və geyimlə təmin olunmasına, ailə üzvləri ilə əlaqə saxlanılmasına köməklik göstəriblər. Amma erməni əsirliyində olmuş soydaşlarımız Beynəlxalq Qırmızı Xaç Komitəsinin də belə "diqqət" və "qayğısından" həmişə məhrum olublar. Komitə erməni işğalı zamanı əsir və itkin düşmüş dörd minə yaxın soydaşlarımızın taleyi ilə bir dəfə də olsun maraqlanmayıb. İndi də yaxasını kənara çəkib. Həmçinin minalarla və partlayıcı hərbi sursatlara çirkinləşdirilmiş işğaldan azad edilmiş ərazilərin xəritələrini Ermənistandan alınmasına kömək göstərmir. Komitənin məhkəmədə şahid qismində iştirakı qanunvericiliyə ziddir. Bu hal ədalət mühakiməsinə müdaxilə və təzyiq anlamına gəlir. İttiham tərəfinin Ruben Vardanyanın özünün təqsirləndirildiyi cinayət işi üzrə prosessual statusunu başa düşməsi barədə fikirləri tam obyektivdir. Özünü "dövlət naziri" elan edən bu tip törətdiyi cinayətlərin də fərqindədir və anlayır ki, hüquqi məsuliyyətdən də qaça bilməyəcək. O, ömrünün qalan hissəsini həbsxanada keçirməlidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Ali Məhkəmədən ilginc faiz qərarı

**Ali Məhkəmənin Mülki kollegiyası borca görə gecikdirmə faizlərinin hesablanması ilə bağlı vahid məhkəmə təcrübəsini formalaşdıran qərar qəbul edib.**

Məhkəmə mübahisəsi iddiaçının cavabdehdən pul borcunun vaxtında qaytarılmaması səbəbindən əlavə gecikdirmə faizlərinin tutulması tələbi ilə bağlı olub. Belə ki, iddiaçı daha əvvəl məhkəmə qərarları ilə tutulmuş əsas borc və faiz məbləğlərini birləşdirərək, həmin ümumi məbləğ üzərindən yenidən gecikdirmə faizi hesablanmasını tələb edib.

Birinci instansiya məhkəməsi iddianı rədd edib, apelyasiya məhkəməsi də həmin mövqe ilə razılaşıb, daha sonra hər iki tərəfin kasasiya şikayətləri üzrə işə Ali Məhkəmədə kasasiya qaydasında baxılıb.

Ali Məhkəmə qərarında vurğulayıb ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7 və 449-cu maddələrinin məzmununa görə gecikdirmə faizləri yalnız ödənilməmiş əsas borc məbləği üzrə və yalnız borcun qaytarıldığı günədək hesablanmalıdır. Daha əvvəl məhkəmə qərarı ilə tutulmuş faiz borcunun əsas borca əlavə edilərək həmin ümumi məbləğ üzərindən yenidən gecikdirmə faizinin hesablanması "faizdən faiz" tutulması ilə nəticələnir ki, bu da qanunvericiliklə qadağan edilir.

Ali Məhkəmə qeyd edib ki, faiz borcunun məhkəmə qərarı ilə tutulması onun hüquqi mahiyyətini dəyişmir və onu əsas borca çevirmir. Belə faiz alacağına yenidən faiz tələb edilməsi borclunun vəziyyətini qeyri-mütənasib şəkildə ağırlaşdırır və ədalət prinsipinə ziddir.

Ali Məhkəmə həmçinin bildirib ki, kasasiya instansiyasının səlahiyyəti iş üzrə faktiki halları yenidən araşdırmaq deyil, aşağı instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunub-olunmadığını yoxlamaqdan ibarətdir. Bu baxımdan apelyasiya instansiyasının sübutlara verdiyi hüquqi qiymət və gəldiyi nəticə əsaslı hesab edilib.

Nəticə etibarilə, Ali Məhkəmə kasasiya şikayətlərini təmin etməyərək apelyasiya instansiyası məhkəməsinin qətnaməsini dəyişdirilmədən qüvvədə saxlayıb.

Yeni MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

# Dizel və ucuz benzinlə işləyən maşınlar ekologiyaya bəla gətirir

## Hökumət yeni addımlar atır, amma... bu kifayətdirmi?

**Dizel daxiliyanma mühərrikini ixtira edərkən gələcək ekoloji pozğunluğun bünövrəsini qoyub. Amma iri sənaye maqnatları çətin ki, bu ixtiraların həyata keçməsinə və ya istehsalına imkan versin.**



**Dizel yanacağı daha ucuz olsa da...**

Ekoloji halın dözülməz hala gəlməsi, ozon qatının məhvi və oksigen qazının çox-çox azalması zəncirvari olaraq digər fəsadlar törədəcək. Günəşin zərərli şüaları, hava çatışmazlığı, kəskin iqlim dəyişkənliyi, təbii fəlakətlərin artması və bunlardan doğan mənfurluqlar. İnsan ömrünün qısalması, səhhətlərin pozulması, doğuşların qeyri-normallığı , yaşama və işləmənin çətinləşməsi. Yaxın 150-200-ilə gözlənilən bu hadisələr, həmçinin qiyamət əlamətlərini də xatırladır. İnsanların sayı artmaqla texnika və texniki tələbatlar artmağa doğru gedir.

Amma bu problemlərə insan amilinin təsiri danılmazdır. Dizel avtomobilləri ekologiyaya necə ziyan vurur?

Avtomobil gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib. Xüsusilə dizel mühərrikli maşınlar uzun illər “daha az yanacaq sərf edir” arqumenti ilə təşviq olunub. Amma dizelin ətraf mühitə vurduğu zərər çox zaman gözardı edilir. Bu zərər təkcə şəhər havası ilə məhdudlaşmır - torpaqdan suya, iqlimdən canlı aləminə qədər geniş təsir göstərir.

Dizel maşınları işlədikcə havaya müxtəlif çirkləndirici maddələr buraxır. Bu maddələr atmosferdə qalaraq yalnız insanlara deyil, bitkilərə və heyvanlara da təsir edir. Azot oksidləri (NOx) havada turşulu birləşmələr əmələ gətirir. Bu birləşmələr yağışla yerə düşərək torpağın və su hövzələrinin turşulaşmasına səbəb olur. Turşulaşma isə torpağın məhsuldarlığını azaldır, bitkilərin kök sistemini zəiflədir Nəticədə təbiətin özünü yeniləmə qabiliyyəti zəifləyir.

**Dizel maşınların yaratdığı fəsadlardan necə qurtulmalı?**

Azərbaycan hökumətinin ətraf mühitin mühafizəsi istiqamətində atılan mühüm addımlar sırasında daha keyfiyyətli benzin istehsalı, elektromobil və elektrik avtobuslardan istifadənin təşviqi də var.

Dizel və benzinlə işləyən avtomobillərin ekologiyaya mənfi təsirləri artıq məlumdur və insanlar üçün xroniki xəstəliklərin mənbəyi olduğu dəfələrlə diqqətə çatdırılıb. Benzin və dizel kimi ənənəvi yanacaqlar, eyni zamanda məhdud neft ehtiyatlarının sürətlə tükənməsinə də yol açır. Bu, enerji təhlükəsizliyi üçün uzunmüddətli risklər yaradır və davamlı enerji siyasətinə mənfi təsir göstərir. Artıq bir çox ölkələr bu istiqamətdə addımlar atıb. Azərbaycandan fərqli olaraq əksər ölkələrdə yanacaq qiymətlərinin baha olması elektrikli avtomobillərə keçidə və ekologiyanın bərpası ilə bağlı prosesin daha tez və sürətli həyata keçirilməsinə imkan yaradıb. Azərbaycan da bu sahədə bir sıra addımlar atır və əlavə də işlər görülə bilər. Buna misal olaraq Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılan Nəqliyyat Vasitələrinin Utilizasiyası Fondunu qeyd etmək olar. Bundan əlavə, Azərbaycanda istehsal olunan avtomobil yanacağının keyfiyyətinin artırılması istiqamətində işlər görülür və bu istiqamətdə ilk addım atılıb. Belə ki, ötən ilin may ayından Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda “Avro-5” ekoloji standartlarına cavab verən dizel yanacağı istehsalına başlanılıb. Bu il iyunun sonunadək müəssisə "Avro-5" standartlarına cavab verən avtomobil benzininin istehsalına başlamağı planlaşdırır. Bu növ benzin havanın keyfiyyətini yaxşılaşdırır və zərərli emissiyaları azaltmaqla ətraf mühitə təsirləri minimuma endirir.

Eyni zamanda hökumət ətraf mühitin mühafizəsi və bərpa olunan enerji layihələrinə investisiyaları artırmalıdır. Bununla yanaşı, elektrikli nəqliyyat vasitələrinin geniş yayılması üçün hərtərəfli enerji doldurma məntəqələrinin yaradılması lazımdır. Bura şəhər mərkəzlərində, magistral yollarda və kənd yerlərində məntəqələrin quraşdırılması daxildir. Elektrikli nəqliyyat vasitələrinin ekoloji faydalarını maksimum dərəcədə artırmaq üçün bərpa olunan enerji mənbələrinə investisiyalar edilməlidir. Günəş, külək və su elektrik enerjisi layihələri elektrik nəqliyyat vasitələrini davamlı enerji ilə doldurmağa imkan verir.

**Torpaq çirklənir, hava zərərli olur, insan boğulur...**

Dizel mühərriklərindən çıxan qara karbon (black carbon) iqlim üçün xüsusilə təhlükəlidir.

1. Qara karbon günəş şüalarını udaraq havanı sürətlə isidir;

2. Qar və buz üzərinə düşəndə onların ağ rəngini tündləşdirir;

3. Bu da buzlaqların daha tez əriməsinə səbəb olur.

Alimlər qara karbonu karbon qazından sonra iqlimin ən sürətli dəyişən çirkləndiricilərindən biri hesab edir. Yəni dizel iqlim böhranını səssiz, amma sürətli şəkildə dərinləşdirir.

Bundan başqa, dizel yanacağı yandırıldıqda böyük miqdarda karbon dioksid (CO) əmələ gəlir. CO atmosferdə uzun illər qalır. Yer kürəsində istiliyi saxlayaraq istixana effektini gücləndirir, temperatur artımı quraqlıqların, meşə yanğınlarının və su qıtlığının artmasına yol açır.

Bəzi hallarda dizel avtomobilləri benzinlilərdən az yanacaq sərf etsə də, ümumi emissiya baxımından ekoloji üstünlük qazanmır. Torpaq və su mühitinə də dolayı ziyan vurur. Havaya buraxılan dizel tullantıları zamanla yağış və toz vasitəsilə torpağa çökür. Eləcə də çaylara, göllərə və yeraltı sulara qarışır.

Bu çirklənmə isə avtomatik olaraq mikroorqanizmlərin balansını pozur, torpağın özünü təmizləmə qabiliyyətini azaldır və su ekosistemlərində canlı müxtəlifliyinə zərbə vurur. Yəni dizelin təsiri yalnız yollarla məhdudlaşmır - bütün ekoloji zəncirə yayılır.

**Ən təhlükəlisi köhnə dizel avtomobillərdir**

İndi isə keçək “köhnə dizel” probleminə. Ekoloji baxımdan ən təhlükəli məqam köhnə dizel avtomobilləridir. Onlarda tüstü filtrləri ya yoxdur, ya da işləmir. Bir köhnə dizel avtomobili onlarla yeni avtomobil qədər çirkləndirici buraxa bilər. Şəhərlərdə hava keyfiyyətini əsasən məhz bu avtomobillər pisləşdirir. Bu səbəbdən bir çox ölkə köhnə dizel maşınların istifadəsini məhdudlaşdırır.

Ona görə də alternativlər mütləqdir. Elektrikli nəqliyyat, ictimai nəqliyyatın gücləndirilməsi, eləcə də piyada və velosiped infrastrukturu dizelə real alternativ kimi görülür.

Bu addımlar təkcə emissiyanı azaltmır, həm də şəhərlərin yaşıl və davamlı inkişafına şərait yaradır. Nəticə etibarilə dizel avtomobilləri ekologiyaya görünəndən daha böyük ziyan vurur. Onlar havanı çirkləndirir, torpaq və su balansını pozur, iqlim dəyişikliyini sürətləndirir. Bu ziyan bir gündə hiss olunmur, amma illər ərzində təbiətin davamlılığını sarsıdır. Ekologiyanı qorumaq üçün dizeldən mərhələli şəkildə imtina artıq seçim yox, zərurətə çevrilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Vaxtı necə aldadırıq?

## Beynimiz vaxtı təqvimlə deyil, yaşadığımız hadisələrin və emosiyaların zənginliyi ilə ölçür




**İlin bizə sürətlə keçmiş kimi görünməsi günlərin sayından yox, beynimizin topladığı unikal xatirələrin sıxlığından asılıdır.**

Moderator.az xəbər verir ki, bu barədə “ScienceAlert” nəşri yazıb.

Məlum olur ki, beynimiz vaxtı təqvimlə deyil, yaşadığımız hadisələrin və emosiyaların zənginliyi ilə ölçür. Siz də 2025-ci ilin bir anın içində keçdiyini hiss edirsiniz? Alimlər bildirir ki, beynimizin daxilində real “saat” yoxdur. O, vaxtın keçməsini yalnız parlaq hadisələrin və güclü emosiyaların sayı ilə qiymətləndirir. Psixoloqların izahına görə, gündəlik rutin günlər sonsuz kimi görünür, amma illər göz açıb-yumunca bitir.

Əslində “vaxtın qavranılması” anlayışı tam dəqiq deyil. Çünki vaxt fiziki obyekt deyil - onu görmək, eşitmək və ya toxunmaq mümkün deyil. İşıq dalğaları, səs titrəyişləri və ya mexaniki təzyiq kimi beynin qeyd edə biləcəyi heç bir “vaxt siqnalı” mövcud deyil. Buna görə də beyin vaxtı birbaşa ölçmür, onu dolayı yolla təxmin edir. Saat mexanizminə bənzər şəkildə, dəyişiklikləri müşahidə edərək nəticə çıxarır. Amma adi saatlardan fərqli olaraq, beynin bərabər “tikləri” yoxdur. O, keçən müddəti hadisələrin sayı və intensivliyi ilə müəyyən edir.

Emosiyalarla dolu, aktiv bir zaman aralığı daha uzun kimi hiss olunur. Tədqiqatlar göstərir ki, məsələn, qısamüddətli, amma dəyişkən görüntü statik şəkildən daha uzun görünür. Elə buna görə də yol qəzası kimi ekstremal vəziyyətlərdə insanlar vaxtın yavaşladığını hiss edirlər. Təcrübələrdə iştirakçılar yüksək stres anlarını sonradan real vaxtdan xeyli uzun qiymətləndiriblər. Güclü emosiyalar diqqəti kəskin şəkildə artırır və beyin son dərəcə detallı xatirələr yaradır. Sonradan bu zəngin xatirələr analiz edilərkən, keçmiş vaxt olduğundan daha uzun görünür.

Ayların hara yoxa çıxdığını anlamaq üçün vaxtın iki fərqli qavrayış formasını ayırd etmək vacibdir. Retrospektiv qavrayış - keçmişə baxıb vaxtı dəyərləndiririk. Perspektiv qavrayış - vaxtın indi necə keçdiyini hiss etdiyimiz an. Məsələn, növbədə gözləmək və ya həkim otağında oturmaq sonsuz kimi görünür, sevdiyimiz işlə məşğul olanda isə vaxt hiss olunmadan keçir. Səbəb diqqətin fokusudur. Nə qədər çox vaxtın özünə diqqət yetirsək, o qədər yavaş keçirmiş kimi görünür. “Vaxt xoş olanda uçur” fikri əslində zövqdən çox yayınma ilə bağlıdır. Zehin məşğul olanda vaxtın keçdiyini hiss etmirik. Darıxmaq, daim saatı izləmək isə vaxtı süni şəkildə uzadır.

“Günlər uzun, illər qısa” ifadəsinin kökü də buradadır. Yaş artdıqca bu hiss daha da güclənir. Uşaqlıq və gənclik dövrü yeniliklərlə zəngindir: ilk təcrübələr, ilk dönüş nöqtələri, böyük dəyişikliklər. Bu mərhələ çoxlu parlaq xatirələr yaradır və sonradan uzun bir dövr kimi xatırlanır. İllər keçdikcə gündəlik həyat avtomatikləşir. Məişət, iş, eyni marşrutlar emosional yükünü itirir. Günlər yavaş və yeknəsəq keçirmiş kimi hiss olunur. Amma məhz bu yeknəsəqlik zəif xatirələr yaradır. İl sonunda beyin geriyə baxanda kifayət qədər parlaq hadisə “tapmır” və nəticədə il qısa görünür. Elə buna görə də dekabrın gəldiyini anlayanda təəccüblənirik.

**Dekabrın 16-dan yanvarın 4-dək "Birbank Visa" kartları ilə Apple Pay və ya Google Pay vasitəsilə Bakı metrosunda gedişhaqqı 60 qəpik əvəzinə 30 qəpik olacaq. Kampaniya hər istifadəçi üçün maksimum 10 gedişi əhatə edir. Rəsmi qurumlar bunu yeni il öncəsi təşviq aksiyası kimi təqdim etsələr də, məsələ cəmiyyətdə sosial güzəştlərin taleyi baxımından ciddi müzakirələr doğurur.**

# Nəqliyyatda güzəşt tətbiqi gələn ilə qaldı

## Ekspert: "Güzəştlər, imtiyazlar olarsa, bu kateqoriyadan olan insanlar da qazanacaq"



Mütəxəssislərin fikrincə, cəmi 20 gün davam edən və məhdud sayda gedişi əhatə edən bu endirim real güzəşt mexanizmi sayıla bilməz. Xüsusilə tələbələr, aztəminatlı ailələr və gündəlik olaraq ictimai nəqliyyatdan istifadə edən vətəndaşlar üçün bu kampaniyanın praktik təsiri demək olar ki, hiss olunmur. Ekspertlər hesab edirlər ki, nəqliyyat xərcləri artıq əksər ailələrin büdcəsində ciddi yükə çevrilib və belə simvolik endirimlər sosial problemi aradan qaldırmır.

Qeyd edək ki, hazırda Bakı metrosunda və nağdsız ödəniş sisteminə keçmiş avtobus marşrutlarında gedişhaqqı 60 qəpikdir. Tarif artımı fonunda ictimaiyyətdə tələbələr və sosial həssas qruplar üçün daimi güzəştlərin tətbiqi ilə bağlı gözləntilər artsa da, hələlik bu istiqamətdə konkret qərar açıqlanmayıb. Mövcud kampaniya isə yalnız bank kartı, eləcə də Apple Pay və Google Pay istifadə edən məhdud auditoriyanı əhatə edir ki, bu da aztəminatlı təbəqənin böyük hissəsinin aksiyadan kənarda qalmasına səbəb olur.

Ekspertlər bildirirlər ki, ictimai nəqliyyat sosial xidmət funksiyası daşımalıdır və bu sahədə qərarlar yalnız texniki yenilənmə və nağdsızlaşma ilə məhdudlaşmamalıdır. Onların fikrincə, tələbələr, pensiyaçılar və aşağı gəlirli vətəndaşlar üçün daimi endirimli tariflər, aylıq və ya illik güzəştli abonementlər tətbiq olunmadan nəqliyyat siyasətinin sosialyönümlü olduğunu söyləmək çətindir.

Ekspertlər eyni zamanda vurğulayırlar ki, bir çox ölkələrdə ictimai nəqliyyatda sosial güzəştlər dövlət dəstəyi hesabına həyata keçirilir və bu, həm sosial ədalətin qorunmasına, həm də şəxsi avtomobillərdən istifadənin azalmasına xidmət edir. Azərbaycanda isə hələlik bu yanaşma sistemli şəkildə tətbiq olunmur.

Nəticə etibarilə, metro və avtobuslarda real sosial güzəştlərin tətbiqi məsələsi faktiki olaraq gələn ilə saxlanılır. Mövcud endirim kampaniyası isə nə tələbələrin, nə də aztəminatlı vətəndaşların gündəlik nəqliyyat xərclərini azaltmaq gücündə deyil. Cəmiyyət gözləyir ki, hökumət bu sahədə simvolik addımlarla kifayətlənməyəcək və ictimai nəqliyyatda davamlı, ədalətli və sosial yönümlü güzəşt mexanizmləri formalaşdıracaq.

**Nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlı** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, dünya ölkələrinin təcrübəsində insanları ictimai nəqliyyata həvəsləndirmək üçün belə addımlar atılır: "Düşünürəm ki, Azərbaycanda da hökumətin buna marağı var. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və AYNA-nın rəhbərliyi bu məsələyə loyal yanaşır. Ümid edirəm ki, texniki məsələlər aradan qalxandan sonra bu, reallaşacaq. Çünki avtobusların heç də hamısı nağdsız ödənişə keçə bilmir. Texniki cəhətdən yararsız avtobuslar var ki, onlarda validatorların quraşdırılması praktiki olaraq mümkün deyil. Ümumi olaraq bu problemlər aradan qalxandan sonra həm metroda, həm də avtobuslarda əhalinin müxtəlif kateqoriyalarına güzəştlər verilə bilər. Burada söhbət təqaüdçülərdən, müharibə veteranlarından və tələbələrdən gedir. Başqa kateqoriyaları isə hökumət özü müəyyənləşdirə bilər.

Hazırda tələbələr böyük kütlədir. Onlar hansısa bir formada ictimai nəqliyyat istifadəçisi kimi saxlanılsa, bu, özü özlüyündə böyük göstərici olacaq. Eyni zamanda şəhid ailələri və müharibə iştirakçıları güzəştlərdən yaralanana bilər".

**Ekspert bildirir ki, ödənişlərin sayı ilə bağlı da güzəştlər tətbiq edilə bilər:** "Məsələn, 1 ödəniş edirsiniz və 90 dəqiqə ərzində o ödəniş keçərli sayılır, əlavə bir ödənişə ehtiyac qalmır. Avtobusda etdiyiniz o ödənişlə metrodan da istifadə edirsiniz. Çünki ictimai nəqliyyatın optimallaşdırılması prosesi gedir. Bu proses çərçivəsində bəzi marşrutları qısaltmaq lazım gəlir. Yəni vətəndaş Lökbatandan hansısa avtobusa minib Binə qəsəbəsinə gedə bilmir. Lökbatandan "28 May" metrostansiyasına gəlir, oradan "Koroğlu" stansiyasına və nəhayət "Koroğlu"dan çıxıb avtobusla Binəyə gedir. Əvvəllər Lökbatandan olmasa da, "20-ci sahə"dən Binə qəsəbəsinə marşrut gedirdi. İndi vətəndaş fikirləşir ki, 3 dəfə ödəniş edib getməkdənsə, elə o qiymətə taksi ilə gedər. Və hesab edir ki, gələcəkdə elə maşın alsın və daha rahat getsin. Ona görə də hökumət bu güzəşti edərsə, vətəndaş o barədə düşünməyəcək. O, bir və ya saat yarım ərzində ictimai nəqliyyatla sərfəli qiymətə şəhərin o başından bu başına gedəcək. Doğrudur, 3 dəfə avtobus dəyişəcək. Amma sonda onun kartından cəmi 1 ödəniş çıxacaq. Bunu bilən vətəndaş əlbəttə ki, ictimai nəqliyyatda qalacaq, avtobusa ötəri nəqliyyat növü kimi baxmayacaq. Bu güzəştlər, imtiyazlar olarsa, düşünürəm ki, ictimai nəqliyyat, dövlət və bu kateqoriyadan olan insanlar da qazanacaq".

**Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev qəzetə bildirib ki, ilk olaraq AYNA-nın bütün daşıyıcıları tam nağdsız sistemə keçməlidir:** "Növbəti il bu cür avtobusları dəyişib tam nağdsız sistemə keçəndən sonra güzəşt məsələsini və 60-90 dəqiqəlik keçidləri tətbiq etmək olar. Uzaq məntəqədən gəlirsinizsə və bir neçə nəqliyyat növü dəyişdirirsinizsə, yol xərcləri optimallaşar. Bu, dünyada çoxdan tətbiq edilir".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# "ƏDV geri al" mexanizmi bərbərxanalara da tətbiq ediləcək

## Salon, restoran və kafelərin cəmi iki həftə vaxtı qaldı



**"ƏDV geri al" mexanizmi bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə də şamil olunacaq. Bu, Milli Məclisin ötən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edəcək.

Maraqlıdır, bu addım qeyd edilən sahələrdə xidmətlərin qiymətinə təsir göstərə bilərmi?

**Iqtisadçı Natiq Cəfərli** "Bakı-Xəbər"ə şərhində bildirib ki, istənilən sahədə vergi və rüsumların artırılması qiymət artımına səbəb olur: "Məlumdur ki, gələn ildən bir sıra sahələrdə vergi artımı olacaq. Bununla yanaşı, sadə vətəndaşlar da vergi ödəyəcək. Həmçinin qarşıdakı ildən etibarən qeyri-neft sektorunda çalışanlar 3 faiz vergi ödəməli olacaq. Bütün vergi artımları biznesə yükdürsə, onlar da qiyməti artırmaq məcburiyyətində olacaq, başqa çıxış yolları yoxdur. Qiymət artımı üstəgəl inflyasiya sahibkarlıqla məşğul olanları çətin vəziyyətə salacaq. Nəzərə almaq lazımdır ki, iş adamları, kiçik sahibkarlar da istehlakçıdır. Ərzağın satış qiymətinin və vergilərin artması istər-istəməz qiymət artımına səbəb olacaq. İstənilən halda, yeni qaydalar sahibkarlar üçün heç də müsbət şeylər vəd etmir. Belə ki, yeni qaydalar bir çox obyektlərə problem yaradacaq. Bərbərxana, gözəllik salonu işlədən şəxslər xidmətlərdə qiymət artımına gedəcək. Bu birmənalıdır".

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025



# Azərbaycanda siqaret çəkən qadınların sayı artır

## Ekspert deyir ki, elektron siqareti qadağan etməklə iş bitmir, gərək...

**Məlum olduğu kimi, Milli Məclisin Aqrar siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin birgə iclasında müzakirəyə çıxarılan "Tütün və tütün məmulatı haqqında" Qanuna dəyişiklik təklif edilib. Dəyişikliyə əsasən, Azərbaycanda elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qadağan edilir.**

Bəllidir ki, elektron siqaretlərin istifadəsi olduqca zərərlidir. Bununla bağlı çoxlu sayda çağırışlar edilir, ancaq yenə də əldə etmək asandır. Bu baxımdan elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsinin qadağan olunması təqdir olunur.

**İqtisadçı ekspert Xalid Kərimli** Bakı-xeber.com-a şərhində bildirib ki, elektron siqaretin və hansısa tütün məhsulunun qiymətinin artmasının Azərbaycan iqtisadiyyatı üçün heç bir ciddi təhdidi yoxdur: "Azərbaycanda elektron siqaretin qadağan olunmasının iqtisadiyyata heç bir ciddi təsiri ola bilməz. Çünki bu məhsulların istehsalı ölkəmizdə müşahidə edilmir. Düşünülsə ki, elektron siqaret qadağan olunsa iş yerləri bağlanar, insanlar işsiz qalar, belə bir hal da gözlənilmir. Sadəcə, ölkədə qeyd edilən məhsula tələbat azalacaq. Vətəndaş görəcək ki, bunu almaq olmur, alternativ məhsuldan yararlanacaq"

**Professor, tibbi ekspert Adil Qeybulla isə deyib ki, müasir dövrdə elektron siqaretdən istifadə edənlərin sayı günü-gündən artır:** "İstifadəçilər əsasən gənc və orta nəsildir. Onlar elektron siqaretin adi siqaretdən qurtulmaq üçün bir yol olduğunu düşünürlər. Elektron siqaretin zərərləri adi siqaretin zərərlərindən az deyil. Siqaretin zərəri əsasən onun tərkibində olan qətran maddələri, benzapirin törəmələridir ki, orqanizmə təsir edib xərçəng və qana keçərək digər xəstəlikləri törədir. Həmin siqaretlərdə istifadə olunan müxtəlif maddələrdən əmələ gələn kondensatlar nəfəs yoluna düşür, onların da kanserogen təsirləri var. Bu təsirlərlə xroniki bronxit kimi xəstəliklər yarana bilir. Elektron siqaretlərin orqanizmə heç bir faydası yoxdur. Sadəcə, insanlar arasında elektron siqaretin faydaları haqqında danışılır, istənilən halda elektron siqaretdən fayda görmək mümkün deyil".

**Ekspert onu da deyib ki, elektron siqareti qadağan etməklə məsələ bitməyəcək, artıq insanlar buna alışıb:** "Dünyada bu, istehsal olunursa, hansısa formada, qeyri-qanuni yolla ölkəyə daxil olacaq. Mən bu cür qadağaların effektli olacağını düşünmürəm. Siqaret əleyhinə maarifləndirmə gücləndirilməlidir. Hazırda siqaret çəkənlərin sayı qadınlar arasında sürətlə artmaqdadır. Əhalinin böyük əksəriyyəti siqaret çəkir, ictimai qınaq yoxdur".

❑ **Musavat.com**

# "Kişilər bir olmur..." - güclü cinsi evdə niyə döyürlər?

## Sosioloq: "Kişilər qadın tərəfindən zorakılığa məruz qaldıqlarını etiraf etməyi öz qürurlarına sığışdırmırlar"

**2024-cü ildə məişət zorakılığı ilə bağlı 535 müraciət, 2025-ci ildə isə 512 müraciət qeydə alınıb. Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova mətbuat konfransında deyib. Bildirib ki, 2024-cü ilin 11 ayı ərzində zorakılığa məruz qalanların 478-i qadın, 384-ü uşaq, 42-si kişi olub. 2025-ci ilin 11 ayı ərzində isə 493 qadın, 466 uşaq və 74 kişi zorakılığa məruz qalıb.**

Göründüyü kimi, məişət zorakılığı ilə bağlı rəqəmlərdə artım var. Qadınlara olan zorakılığın artması ilə bağlı səbəblər dəfələrlə açıqlanıb. Ancaq maraqlıdır ki, kişilərə də məişət zorakılığı var və statistikada artım qeydə alınıb.

Araşdıranda məlum olur ki, daha çox qoca və xəstə kişilər qadınlar tərəfindən fiziki zorakılığa məruz qalır. Gənc ailələrdə demək olar ki, bu cür faktlar çox təsadüfi hallarda baş verir. Gənc ailələrdə qadınlar daha çox məişət zəminində özlərini müdafiə etmək üçün, bəzən isə qısqanclıq ucbatından qarşı cinsə zorakılıq nümayiş etdirir. Ekspertlər də qeyd edir ki, ölkəmizdə kişilər qadınlar tərəfindən əsasən psixoloji zorakılığa məruz qalır.

Ümumilikdə isə bütün dünyada kişilərə qarşı aqressiyanın artdığı müşahidə olunur. BMT-nin son illər apardığı araşdırmalara görə, ailədaxili zorakılıq zamanı qurban rolunda kişilərin sayı artmağa başlayıb.

Maraqlıdır, kişilər hansı formada məişət zorakılığının qurbanı olur? Ümumiyyətlə, Azərbaycan reallığında kişilərin məişət zorakılığına məruz qalması nə dərəcədə inandırıcıdır?

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edib ki, qanunvericilikdə məişət zorakılığı anlayışına dair verilən izaha əsasən, məişət zorakılığı uzun müddət birgə yaşamaqdan və ya nikah münasibətlərindən sui-istifadə etməklə bir şəxsin digərinə qarşı psixoloji, iqtisadi, fiziki, emosional və cinsi zorakılıq formaları tətbiq etməsi kimi qiymətləndirilir: "Bu anlayışın özü göstərir ki, məişət zorakılığı yalnız bir cinsə, yalnız bir sosial qrupa aid edilə bilməz. O, ailədaxili münasibətlərin deformasiyası nəticəsində yaranan çoxşaxəli və kompleks sosial problemdir. Lakin ümumilikdə mövcud yanaşmalara baxdıqda, məişət zorakılığının kişiyə qarşı, qadına qarşı və uşağa qarşı tətbiqi məsələsində ciddi ziddiyyətlər və balanssızlıqlar müşahidə olunur. Təəssüflə qeyd etmək lazımdır ki, məişət zorakılığı mövzusu müxtəlif güc mərkəzləri tərəfindən demək olar ki, yalnız "qadına qarşı məişət zorakılığı" prizmasından təqdim olunur və ictimai rəyə bu istiqamətdə fokuslanır. Bu isə nə problemin mahiyyətinə uyğundur,



nə də sağlam yanaşma sayıla bilər. Belə bir yanaşma çox zaman aqressiv feminist dalğanın təsiri altında formalaşan, müxtəlif beynəlxalq və ideoloji mərkəzlər tərəfindən yönləndirilən bir hərəkat təsiri bağışlayır. Xüsusilə Azərbaycan kimi ənənəvi cəmiyyətlərdə bu cür birtərəfli yanaşma birbaşa ailə institutunu hədəfə alır, qadın-kişi qarşıdurması yaradır, ailədaxili münaqişələri "qadın hüquqları" adı altında dərinləşdirir. Nəticədə isə cəmiyyətin əsas dayağı olan ailə institutu sarsıdılır, sosial harmoniya pozulur".

**Ekspert deyib ki, bəzən bu proseslərdə Overton pəncərəsi anlayışının tətbiq edildiyi də açıq-aydın hiss olunur. Yəni ilkin mərhələdə cəmiyyət üçün qəbuledilməz olan fikirlər "gender bərabərliyi", "qadın hüquqları" kimi anlayışlar altında tədricən normallaşdırılır:** "Məişət zorakılığı problemi bu fonda bir alətə çevrilir, lakin əsas məqsəd gizli saxlanılır. Bu məqsəd isə açıq-aydın görünür: kişi mərkəzli cəmiyyət modelini sarsıtmaq, ailə iyerarxiyasını dağıtmaq, hətta bəzi hallarda anaxaqanlıq modelini normallaşdırmaqdır. Bu cür proseslərin nəticəsində münaqişəli ailələrin sayı artır, boşanmalar çoxalır, uşaqlar psixoloji travmalarla böyüyür".

**Sosioloqun fikrincə, məişət zorakılığı anlayışını yalnız qadınlar üzərindən fokuslamaq ədalətsizlikdir**: "Ortaya ciddi suallar çıxır: Niyə məişət zorakılığı deyildikdə yalnız qadınlar ön plana çəkilir? Niyə statistik məlumatlar yalnız qadın müraciətləri üzərindən formalaşdırılır? Məlumdur ki, qadınlar məişət zorakılığına məruz qaldıqda qaynar xətlərə, QHT-lərə, media orqanlarına daha rahat müraciət edirlər. Lakin araşdırmalar göstərir ki, məişət zorakılığının ən ağır və dağıdıcı forması emosional zorakılıqdır və bu zorakılıq növünü çox zaman qadınlar kişilərə qarşı tətbiq edirlər. Problem ondadır ki, xüsusilə ənənəvi cəmiyyətlərdə kişilər qadın tərəfindən emosional və psixoloji zorakılığa məruz qaldıqlarını etiraf etməyi öz qürurlarına sığışdırmır, aidiyyəti qurumlara müraciət etmirlər. Əgər ailəsi, həyat yoldaşı və ya yaxınları tərəfindən zorakılığa məruz qalmış kişilər də rəsmi ünvanlara müraciət etsəydilər, bu gün təqdim olunan statistika tamamilə fərqli mənzərə ortaya qoyardı. Deməli, məişət zorakılığı anlayışını yalnız qadınlar üzərindən fokuslamaq həm ədalətsizdir, həm də problemin həllinə xidmət etmir".

**Ekspert deyib ki, digər vacib məsələ isə uşaqlara qarşı məişət zorakılığıdır:** "Valideynləri - ana və ata tərəfindən zorakılığa məruz qalan uşaqlar azdırmı? Əlbəttə ki, xeyr. Onların sayı kifayət qədər çoxdur. Sadəcə, uşaqların səsi olacaq effektiv mexanizmlər mövcud deyil. Əgər uşaqların özlərini ifadə edə biləcəyi real mexanizmlər olsaydı, uşaqlara qarşı həm fiziki, həm emosional, həm də iqtisadi zorakılığın miqyası daha aydın üzə çıxardı. Təəssüf ki, valideynlərin öz aqressiyalarını çox zaman məhz uşaqların üzərinə yönəltdiyini görürük. Son günlər Milli Məclisdə məişət zorakılığı qurbanı olan qadınların pulsuz vəkillə təmin olunması ilə bağlı müzakirələrin aparılması da bu baxımdan ciddi suallar doğurur. Əgər söhbət məişət zorakılığının qurbanlarından gedirsə, bu yanaşma niyə yalnız qadınlara şamil edilir? Məişət zorakılığına məruz qalan kişi və ya uşaq bu hüquqdan niyə kənarda qalmalıdır? Hesab edirəm ki, əgər bu sahədə qanuni mexanizmlər yaradılırsa, onlar universal, ədalətli və ayrı-seçkilikdən uzaq olmalıdır. Qanun yalnız bir cinsin deyil, bütün qurbanların müdafiəsinə xidmət etməlidir. Yalnız bu halda məişət zorakılığı problemi real və effektiv şəkildə həll oluna bilər".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 231 (8841) 19 dekabr 2025

# Yeni virus 30 ölkəni çənginə alıb - Azərbaycana təhlükəsi

## Həkimlərdən xəbərdarlıq: "Bu mövsüm məktəb yaşlı uşaqlar arasında qrip daha sürətlə yayılır, ona görə..."

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertləri "Honkonq qripi" kimi tanınan A(H3N2) virusunun sürətlə yayıldığını təsbit ediblər. Bu barədə ÜST-nin Epidemioloji və Pandemiya Təhlükələrinin İdarə Edilməsi Departamentinin Qlobal Respirator Təhlükələri Şöbəsinin müdiri Ventsin Çjanın açıqlamasında deyilir. Onun sözlərinə görə, virus artıq dünyanın 30 ölkəsində aşkarlanıb: "Şimal yarımkürəsində qış mövsümü başlayandan qrip və digər tənəffüs yolu virusları ilə yoluxma hallarında artım müşahidə olunur. Bununla belə, qripə yoluxmanın qlobal səviyyəsi bu mövsümdə hələ gözlənilən diapazondadır".**

Qeyd edək ki, A(H3N2) virusu ilk dəfə Avstraliya və Yeni Zelandiyada qeydə alınıb.

"Honkonq qripi" mövsüm qripi adlandırılır. Mövsümi olaraq keçid dövründə olan bir prosesdir. Bu qrip sıx nəqliyyat vasitələrində, yəni metroda, avtobusda yayılma ehtimalı daha çox olan, məktəblərdə daha çox yayılan bir proses kimi qiymətləndirilir. A(H3N2) bu virusun kodudur".

Bu barədə Redaktor.az-a həkim-terapevt Günay Lətifova "Honkonq qripi"nin nə olmasından və simptomlarından danışarkən bildirib. Onun sözlərinə görə, bu virus koronavirusla da bənzəyir. "Ancaq analizdən sonra tam vəziyyəti müəyyənləşdirmək olar. Simptomlar: baş ağrısı, ürəkbulanması, quru və bəlğəmli öskürək, hərarətin qalxmasıdır.

H3N2 qrip virusu əslində yeni deyil, mövsümi qripin uzun illərdir dövr edən tiplərindən biridir. Buna baxmayaraq, bu mövsüm bəzi ölkələrdə yoluxmaların sayının sürətlə artması həkimlərin və səhiyyə qurumlarının diqqətini yenidən bu virusa yönəldib. "Yeni Müsavat" xəbərinə görə, ÜST-nin Avropa üzrə rəhbəri doktor Hans Kluge bildirib ki, bu il qrip mövsümü əvvəlki illərlə müqayisədə daha erkən başlayıb. Onun sözlərinə görə, hazırda yayılan A(H3N2) virusu daha ağır deyil, lakin daha çox insana yoluxur. Kluge hesab edir ki, əsas problem virusun "yeni hiss olunmasıdır", yəni əhalinin böyük hissəsinin bu konkret alt formaya qarşı kifayət qədər immun yaddaşı yoxdur. Bu isə xəstəxanalara müraciətlərin artmasına səbəb olur.

Bununla yanaşı, bəzi yoluxucu xəstəliklər üzrə mütəxəssislər vəziyyətə daha sakit yanaşırlar. ABŞ-də çalışan epidemioloq və infeksionist həkimlərdən bəziləri bildirirlər ki, A(H3N2) hər il müəyyən dalğalarla qayıdır və hazırkı artım qrip mövsümünün klassik gedişinə uyğundur. Onların fikrincə, media və sosial şəbəkələrdə mövzu bəzən həddindən artıq dramatik təqdim olunur və bu, insanlarda əsassız qorxu yaradır.

Johns Hopkins Universitetinin mütəxəssisi professor Andrew Pekosz qeyd edir ki, H3N2 qrip virusları digər qrip tipləri ilə müqayisədə daha tez dəyişir. Bu səbəbdən bəzi illərdə peyvəndlə uyğunluq zəif ola bilər. Lakin o vurğulayır ki, peyvəndin əsas məqsədi yoluxmanı tam dayandırmaq deyil, ağırlaşmaların, xəstəxanaya düşmənin və ölüm riskinin qarşısını almaqdır. Pekoszun fikrincə, hazırkı peyvənd bu baxımdan hələ də faydalıdır.



Britaniyalı ailə həkimləri və pediatrlar isə xüsusilə uşaqlarla bağlı narahatlıqların dilə gətirirlər. Onların müşahidələrinə görə, bu mövsüm məktəb yaşlı uşaqlar arasında qrip daha sürətlə yayılır. Bunun səbəbi kimi pandemiyadan sonra kollektiv immunitetin zəifləməsi göstərilir. Bəzi həkimlər deyir ki, son illərdə uşaqlar qrip virusları ilə daha az təmasda olduqları üçün indi xəstəliyi daha ağır keçirə bilirlər.

Digər tərəfdən, Almaniya və Skandinaviya ölkələrində çalışan bəzi infeksionistlər hesab edirlər ki, A(H3N2) ilə bağlı panikaya ehtiyac yoxdur. Onların fikrincə, xəstəxanaların dolması təkcə qriplə bağlı deyil, eyni zamanda kadr çatışmazlığı və səhiyyə sistemlərinin artıq illərdir yüklü olması ilə əlaqədardır. Bu həkimlər virusun özünün əvvəlki H3N2 dalğalarından ciddi fərqlənmədiyini deyirlər.

Asiyalı mütəxəssislər isə xüsusilə Honkonq və Cənubi Koreyada çalışan həkimlər isə daha ehtiyatlı mövqe tuturlar. Onlar bildirirlər ki, H3N2 yaşlı insanlarda və ürək-damar, ağciyər xəstəlikləri olan şəxslərdə ağır fəsadlara səbəb ola bilər. Bu səbəbdən risk qruplarının vaxtında peyvənd olunması və xəstəliyin ilk əlamətlərində həkimə müraciət edilməsi vacib sayılır.

Azərbaycanda isə səhiyyə qurumları virusun ölkəmizdə aşkarlanmadığını bildirir. Bizimlə söhbətdə **Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov** deyib ki, H3N2 qrip virusunun yayılması mövsümi xarakter daşıyır. Onun sözlərinə görə, hava şəraiti dəyişdikcə virus infeksiyaları da aktivləşir və xüsusilə immun sistemi zəif olan şəxslər bu xəstəliyə daha tez yoluxa bilirlər. Həkim qeyd edib ki, düzgün müalicə olunmamaq və qoruyucu tədbirlərə əməl edilməməsi yoluxma hallarının artmasına səbəb olur.

**O vurğulayıb ki, qrip virusları hər il müəyyən dəyişikliklərə məruz qalır və bu dəyişikliklər virusun insan orqanizminə daha asan uyğunlaşmasına şərait yaradır:** "Nəticədə immun sistem virusu dərhal tanımır və xəstəlik daha geniş yayılır. Bununla belə, hazırda vəziyyətin ciddi təhlükə yaratmadığını bildirib. Hazırda Azərbaycanda H3N2 virusunun geniş yayılması ilə bağlı rəsmi məlumat yoxdur və hər hansı təhlükə yaranarsa, aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər görüləcək".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

# Çay istehsalında ciddi azalma

## İqtisadçı: "Azərbaycanda yığılan çay ümumi tələbatın heç 10 faizini təşkil etmir"

**Cari ilin yanvar-noyabr aylarında Azərbaycanda 10 min 540,1 ton çay istehsal olunub. Valyuta.az xəbər verir ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 988,2 ton və ya 8,5 faiz azdır. Ötən ilin müvafiq dövründə çay istehsalı 11 min 528,3 ton təşkil etmişdi. Rəsmi məlumatlara əsasən, noyabr ayının 1-nə olan vəziyyətə görə hazır məhsul ehtiyatı 94,0 ton olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,32 faiz və ya 0,3 ton çoxdur. 2024-cü ilin eyni dövründə bu göstərici 93,7 ton təşkil edib.**



Məlumdur ki, çayçılıq və sitrusçuluq heç də hər ölkədə yaradıla bilən istehsal sahələri deyil. Bundan ötrü əlverişli subtropik təbii iqlim xüsusiyyətlərinin, münbit becərmə şəraitinin olması vacibdir. Tanrının lütfü Azərbaycan torpağını məhz bu özəlliklə də şərəfləndirib.

Azərbaycan çayı dünyada məşhur və seçilən çaylardandır. Ancaq son zamanlar bu sahədə inkişaf deyil, əksi müşahidə edilir. Belə ki, çay plantasiyalarının sayı, həmçinin istehsal da azalıb. Təbii ki, vəziyyət belə olanda idxalın həcmi artır.

Məlumat üçün bildirək ki, "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı" imzalanıb. Proqramın hazırlanmasında məqsəd ölkədə quru çaya olan tələbatın əsasən yerli məhsul hesabına ödənilməsi, çay emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, çay məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün çayçılığın inkişafını stimullaşdırmaqdır.

Onu da qeyd edək ki, ölkəmizdə çay bitkisi ilk dəfə XIX əsrin sonlarında əkilib, çayın elmi əsaslarla becərilməsinə 1929-cu ildən, sənaye miqyaslı plantasiyaların salınmasına isə 1932-ci ildən başlanıb. Əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşməklə, ölkədə 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqlarının mövcud vəziyyəti çay bitkisinin becərilməsinə imkan verir.

2024-cü ildə Azərbaycanda çay plantasiyalarının sahəsi 947,8 hektar olub. Ümumi çay plantasiyalarının 853,9 hektarı və ya 90,1%-i bar verən yaşda olub. Ötən ilin nəticələrinə əsasən, ölkə üzrə çay plantasiyalarının 57,6%-i Lənkəran, 24,5%-i Astara, 11,5%-i Masallı, 6,3%-i isə Zaqatala rayonunun payına düşüb. İxrac göstəricilərinə gəldikdə, 2024-cü ildə Azərbaycandan xarici bazarlara 747 ton çay ixrac olunub. Azərbaycandan çay ixracının 44,0%-i Gürcüstanın, 32,4%-i Ukraynanın, 23,6%-i isə digər ölkələrin payına düşüb.

Azərbaycana çay idxalı isə əsasən Rusiya, Çin və Hindistandandır. Şri-Lanka, Keniya, Vyetnam, İran və Türkiyədən də çay idxal olunur.

**İqtisadçı Xalid Kərimlinin fikrincə, Azərbaycan çay ölkəsi deyil. "Yeni Müsavat"a açıqlamasında ekspert qeyd etdi ki, 2025-ci ilin 10 ayında 11 min 592 ton çay idxal edilib:** "11 aylıq statistikaya əsasən, yaşıl çay yarpağının yığımı 12,7 faiz artıb. İki fərqli statistikanı müqayisə etdikdə görürük ki, Azərbaycanda yığılan çay ümumi tələbatın heç 10 faizini təşkil etmir. Azərbaycanda istehsal olunan 10 min 540 ton çay dedikdə həm də xaricdən idxal olunan çayların qablaşdırılması və s. nəzərdə tutulur. İdxal keçən ilin 10 ayı ilə müqayisədə 5,5 faiz artıb. Çay istehsalının azalmasının əsas səbəbi idxalın azalmasıdır. Nəticədə çay istehsalı 8,5 faiz azdır. Bununla əlaqədar birinci ehtimal budur ki, ehtiyatlar hesabına yerli tələbatı və ixracı təmin ediblər. 4,3 faiz çay ixracı azalıb. Biz çayı alıb qablaşdırırıq. 596 ton çay ixrac etmişik. Bu isə keçən illə müqayisədə 4,3 faiz azdır. Nəticə etibarilə, çay istehsalı da, çay ehtiyatları da azalıb. Təəssüf ki, ehtiyatların həcmi gələn ilin yay aylarında bəlli olacaq. Üçüncü isə səbəb isə budur ki, ümumiyyətlə, tələbat azala bilər.

Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər salsaq, bu ilin yanvar-mart aylarında Azərbaycanda 2 min 458,8 ton çay istehsal edilib. İyulun 1-nə ölkədə 78,1 ton hazır məhsul ehtiyatı olub ki, bu da 1 il əvvələ nisbətən 18,5 % azdır. Fed.az yazır ki, bu ilin ilk 11 ayının nəticələrinə görə Azərbaycanın ixrac etdiyi çayın 1 kiloqramının orta ixrac qiyməti 15 manat 57 qəpik olub. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 15 manat 3 qəpik idi. Bu da illik müqayisədə 54 qəpik və ya 3,6% bahalaşma deməkdir. Bu il 11 ayında ümumi ixracın 0,03%-i, qeyri-neft sektoru üzrə ixracın isə 0,19%-i çayın payına düşüb. Ötən ilin eyni dövründə isə müvafiq göstəricilər 0,02% və 0,19% olmuşdu.

❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 231 (8841) 19 dekabr 2025
Dekabr

## Bunları bilirsinizmi?

* Səudiyyə Ərəbistanında heç çay yoxdur.
* Monakonun milli orkestri ordusundan daha geniş bir heyətə malikdir.
* Zürafələr üzə bilməz.
* Ortalama olaraq, Amerikada gündə üç ədəd cinsiyyət dəyişdirmə əməliyyatı reallaşmaqdadır.
* İnsan beyninin 80%-i sudur.
* Amerikada hər saat 40 adam xərçəngdən həyatını itirir.
* İrəli doğru bir addım atıldığında, insan bədənindəki 54 əzələ çalışar.
* İnsan beyninin ortalama ağırlığı 1.3 kg.
* Birinin yüzünü xatırlamaq üçün beynin sağ tərəfi istifadə edilər.
* Yetkin bir insan gündə ortalama olaraq 23 min dəfə nəfəs alar.
* Qaşları yuxarı qaldırmaq üçün 30 əzələni hərəkətə keçirmək lazımdır.
* Kişilər qadınlara görə on qat daha çox rəng koru olurlar.
* Uşaqlar baharda daha çox böyüyür.
* Ortalama bir birə, öz böyüklüyünün 150 qatı yüksəkliyə tullana bilir.
* İnsanlar bədənlərində 300 ədəd sümüklə doğulurlar amma yetkin olduqlarında bu ədəd 206 ya düşür.
* Hər dörd Amerikalıdan biri mütləq televiziyada görünür.
* Kəpənəklər ayaqlarıyla dad alırlar.
* Sarışınların əsmərlərə görə daha çox saçı vardır.
* İllərə görə ortalama alındığında , hər il eşşəklər tərəfindən
öldürülən insan sayı təyyarə qəzalarında ölənlərin sayından
daha çoxdur.
* Qadınlar kişilərə nisbətlə iki qat çox göz qırpar.
* İnsan bədənindəki ən güclü əzələ dildir.
* Gözləri açıq saxlayaraq asqırmaq qeyri-mümkündür.

# Supermarketdən alınan yumurta hərracda satıldı



**Supermarketdən alınan yumurta təkcə onu alan qadına deyil, bütöv bir xeyriyyə fonduna inanılmaz uğur gətirib. Bu barədə "Daily Mail" xəbər yayıb. Bildirilib ki, Lamborn şəhərinin sakini Ed Paunell yaranma ehtimalı milyarddabir olan unikal dəyirmi toyuq yumurtasını əldə edib və onu gənclərin psixi sağlamlığını dəstəkləyən "Iuventas Fonduna" ianə edib.**

Fond əməkdaşları əvvəlcə bu hədiyyəni zarafat kimi qəbul ediblər, bununla belə dəyirmi yumurtanı xeyriyyə hərracına çıxarmağa qərar veriblər. Ancaq hamının heyrətinə səbəb olan hadisə baş verib: lot üçün tam 200 funt sterlinq (430 manat) əldə edilib. Qeyd edək ki, yumurtanın yalnız bir lot olduğu hərrac fond üçün ümumilikdə 5000 funt sterlinq toplayıb. "Toplanmış vəsait psixi sağlamlıq problemləri ilə üzləşən və dəstəyə ehtiyacı olan 13-25 yaşlı gənclərə kömək edəcək", - deyə fond əməkdaşı Rozz Repp bildirib.



## Özbəkistanda şirlər 44 yaşlı kişini parçaladılar

**Özbəkistanın Daşkənd vilayətində özəl zooparkda üç şir mühafizəçini parçalayıb. Bu barədə vilayət polis idarəsinin mətbuat xidməti məlumat yayıb. "Dekabrın 17-də Daşkənd vilayətinin Parkent rayonunda yerləşən "Lion Park" özəl zooparkında bir qəfəsdə saxlanılan üç şir qəfəsdən qaçıb. Şirlər orada gözətçi işləyən vətəndaşa hücum edib və ona xəsarət yetiriblər. Təəssüf ki, 44 yaşlı vətəndaş aldığı xəsarətlər nəticəsində dünyasını dəyişib", - məlumatda bildirilir.**

Qeyd olunur ki, hadisə nəticəsində başqa heç kim xəsarət almayıb; yırtıcılar xüsusi qəfəsə qaytarılıb. Daxili İşlər Nazirliyinin əməkdaşları hadisə yerində əməliyyat-istintaq tədbirləri həyata keçirirlər.



## "Brain Rot"dan necə uzaqlaşmaq olar?

**Dr. Kura Bobinet bildirir ki, hər kəs üçün uyğun olan vahid bir həll yolu yoxdur. İnsanların özlərinə ən yaxşı təsir edən üsulu tapması və onu fərdiləşdirərək tətbiq etməsi vacibdir.**

"Kiçik dəyişikliklər edərək, sınaqdan keçirərək və təcrübələrdən öyrənərək bu vəziyyəti yaxşılaşdırmaq olar," - deyə o vurğulayır.

Yekun olaraq mütəxəssislər qeyd edir ki, bu cür vərdişlərdən qurtulmaq təkcə sağlam düşüncə üçün deyil, həm də şəxsi motivasiya və həyat keyfiyyətini artırmaq üçün mühüm rol oynayır.

## Parkinson xəstəliyi beynin emosional reaksiyaları ilə aşkarlanacaq

**Kanberra Universiteti və Küveyt Elm Kollecinin alimləri müəyyən ediblər ki, Parkinson xəstəliyi (PX) olan şəxslərin beyni qorxu, nifrət və təəccüb kimi emosiyaları tanımaqda ciddi çətinliklərlə üzləşir. Tədqiqatın nəticələri "Intelligent Computing" jurnalında dərc edilib. Parkinson xəstəliyinin innovativ diaqnostikası elektroensefaloqrafiya (EEQ - beyin elektrik aktivliyinin izlənməsi) vasitəsilə aparılıb. Tədqiqat zamanı alimlər Parkinson xəstəliyi olan 20 pasiyent və 20 sağlam şəxsin gizli emosional reaksiyalarını təhlil etmək üçün EEQ metodundan istifadə ediblər. Bu üsul yüksək diaqnostik dəqiqlik nümayiş etdirib və göstərici 0.97-ə bərabər olub ki, bu da 100 faizə yaxındır.**

Araşdırma göstərib ki, Parkinson xəstələri emosiyaları sağlam insanlardan fərqli şəkildə qəbul edirlər. Onlar emosiyaların intensivliyini (emosional həyəcanı) daha yaxşı tanıya bilsələr də, emosiyaların valentliyini (xoşagələn və ya xoşagəlməz olması) müəyyən etməkdə çətinlik çəkirlər. Xüsusilə qorxu, nifrət və təəccübün tanınmasında nəzərəçarpan problemlər yaranır. Bundan əlavə, PX olan xəstələrdə ziddiyyətli emosiyalar, məsələn, kədər və xoşbəxtlik arasında qarışıqlıq müşahidə olunur.

Alimlərin sözlərinə görə, EEQ əsaslı diaqnostik metodların təkmilləşdirilməsi emosional beynin monitorinqini Parkinson xəstəliyinin diaqnostikası üçün geniş yayılan klinik alətə çevirmək potensialına malikdir. Tədqiqat neyrotexnologiyalar, süni intellekt və affektiv hesablamaların birləşməsinin nevroloji sağlamlığın obyektiv qiymətləndirilməsi üçün perspektivli olduğunu sübut edir.

## Yapon barlarında müştəriləri silləmək qadağan edildi

**Yaponiyada ucuz pivəsi və məşhur toyuq qanadları ilə tanınan "Yotteba" barlar şəbəkəsi sərxoş müştərilər üçün təqdim edilən qeyri-adi xidmətdən imtina etməyə məcbur olub. Söhbət ofisiantların müştəriləri silləməsindən gedir. Bu xidmət içkili müştərilərin evə getməzdən əvvəl daha tez ayılmasına kömək etmək məqsədi daşıyırdı. Cəmi 500 yen (təxminən 5.5 manat) müqabilində müştərilər ofisiantdan üzlərinə sillə vurmağı xahiş edə bilərdilər. Əlavə 100 yen (təxminən 1.1 manat) ödəməklə isə zərbəni vuracaq işçini seçmək mümkün idi.**

Sosial şəbəkələrdə bu qeyri-adi xidmətlə bağlı çoxlu görüntülər yayılmış və "silləyə dözən" müştərilər xüsusi alqışlanmışdı. Lakin müştərilərdən birinin aldığı xəsarətlə bağlı şikayəti səbəbindən barlar şəbəkəsinin rəhbərliyi bu xidməti ləğv etmək qərarına gəlib.

## Sosial media asılılığının beyinə təsiri - dəhşətli faktlar




**Oksford Universiteti tərəfindən 2024-cü ilin "ilin sözü" olaraq seçilən "brain rot" ( beyin zəifləməsi) ifadəsi beynin intellektual və ya zehni vəziyyətinin zəifləməsini təsvir edir. Bu ifadə xüsusilə sosial media və digər onlayn məzmunun həddindən artıq istehlakı nəticəsində yaranan mənfi təsirlərə işarə edir. Mütəxəssislər hesab edir ki, sosial şəbəkələrdə fasiləsiz "scrolling" (yuxarı və ya aşağı sürüşdürmək) davranışı məhz bu təsiri yaradır və beynin "çürüməsinə" səbəb olur.**

Milli.Az "New York Post"a istinadən xəbər verir ki, davranış üzrə neyroelm mütəxəssisi Dr. Kura Bobinet bildirir ki, sosial medianın təsirləri ilə bağlı ictimaiyyət arasında artan bir məlumatlılıq mövcuddur. O qeyd edir ki, bu asılılıq diqqət dağınıqlığı, beyin dumanı və dərin işlərə fokuslanma qabiliyyətinin itməsi ilə müşayiət olunur. Bundan əlavə, insanlar arasında yaranan tənhalıq hissi də bu problemlərin bir hissəsidir.

Dr. Bobinetin sözlərinə görə, sosial mediada fasiləsiz gəzişmək (doom-scrolling) beyində motivasiya və qərarvermə proseslərində iştirak edən habenula adlanan bir bölgə ilə bağlıdır. Bu bölgənin aktivləşməsi, insanın mühüm işləri görmək əvəzinə, vaxtını faydasız məşğuliyyətlərə sərf etməsinə səbəb ola bilər.

"Habenula, çətin işlərdən qaçma davranışını idarə edir," - deyə Bobinet əlavə edir. Uzun və yorucu bir günün sonunda sosial mediadan istifadə etmək isə beynin istirahət etmək cəhdi kimi qiymətləndirilə bilər. Lakin bu davranış nəinki beyinə fayda verir, hətta sosial media asılılığını daha da gücləndirir və motivasiyanı azaldır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.